

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

10 iyun 2026-cı il, çərşənbə
№ 099 (7166)
Qiyməti 60 qəpik


# Sülh sazişi nə vaxt imzalanacaq?

## Azərbaycanın post-müharibə strategiyası regionun yeganə inkişaf yoludur



Bax səh. 2

## Aqrar sahəyə dövlət dəstəyi genişləndirilir

Bax səh. 4

## 10-cu üçtərəfli görüş...

Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki yeri və rolu davamlı olaraq artmaqdadır. Müstəqil və milli maraqlara söykənən xarici siyasət kursu bu məsələdə əhəmiyyətli rol oynayır. Beynəlxalq münasibətlər sisteminin müstəqil subyekti olaraq Azərbaycan özünün xarici siyasət kursunda qarşılıqlı tərəfdaşlığa, ikitərəfli maraqlara əsaslanan əməkdaşlığa və çoxvektorlu yaxın əlaqələrə əsaslanır. Bu gün ölkəmiz ilə dünyanın əksər dövlətləri və təşkilatları arasındakı münasibətlər məhz bu müstəvidə tənzimlənir, hüquqi çərçivəsini müəyyənləşdirir. Eyni zamanda, Azərbaycan hər zaman münasibətlərin inkişafında ən mühüm detal olaraq səmimi münasibətlərə üstünlük verir.

Ölkəmizin yürütdüyü dövlət siyasətində qonşu ölkələrlə əlaqələrin inkişafı xüsusi yer tutur. Azərbaycan hər zaman öz qonşuları ilə əlaqələrin möhkəmləndirməsi, daha da yaxınlaşdırılması istiqamətində fəaliyyət göstərir. Yerləşdiyimiz Cənubi Qafqaz regionu geosiyasi baxımdan strateji əhəmiyyət daşıdığı üçün region ölkələrinin yaxın qonşuluq münasibətləri zəminində əməkdaşlığına hər zaman böyük ehtiyac duyulub. Ona görə də, Azərbaycan qonşu ölkələrlə normal qarşılıqlı əlaqələrin güclənməsinə hər zaman böyük önəm verib. Qarşılıqlı əlaqələrin gücləndirilməsi prosesində üçtərəfli görüş platforması bu mənada əhəmiyyət kəsb edir. Məsələn, Azərbaycan, Türkiyə və Gürcüstanın dövlət başçıları, xarici işlər və müdafiə nazirləri mütəmadi olaraq görüşürlər. Bu, artıq ənənə halını alıb. Bu ənənə uğurla davam etdirilir.

Yeri gəlmişkən, iyunun 8-də İstanbul şəhərində Azərbaycanın xarici işlər naziri...

Bax səh. 3



Bax səh. 4

## Milli Qurtuluşdan Zəfərə aparan şanlı yol

## Siyasi partiyaların fəaliyyətində yeni inkişaf mərhələsi

Bax səh. 3

## XİN bəyanat yaydı

Bax səh. 5

## Yelisey Sarayına gedən yolda...

Bax səh. 7

## Ötən ilin dövlət büdcəsinin icrası müzakirə olunub

İyunun 9-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. İclasda "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi müzakirəyə çıxarılıb.

Komitənin sədri Azər Əmiraslanov çıxış edərək ötən ilin dövlət büdcəsinin icrası ilə bağlı fikirlərini bildirib.

Sonra çıxış edən maliyyə naziri Sahil Babayev sənəd barədə ətraflı məlumat verib. O bildirib ki, 2025-ci il Azərbaycan üçün uğurlu il olub. Ümumi daxili məhsulumuz 129,1 milyard manata çatıb və bu 2024-cü illə müqayisədə nominal olaraq, 2 faizlik artım deməkdir. Onun sözlərinə görə, 2025-ci il üzrə büdcə siyasətində iqtisadi artımın davam etməsi, makroiqtisadi sabitliyin, fiskal intizamın qorunması, büdcə qaydasına əməl edilməsi ilə yanaşı, əhalinin rifahı və sosial tədbirlərin tam maliyyələşdirilməsi, müdafiə qabiliyyətinin və təhlükəsizliyinin təminatının gücləndirilməsi, eləcə də Qarabağ, Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı, rəqəmsal texnologiyaların, innovativ tətbiqlərin genişləndirilməsi, real sektorun inkişafının sürətləndirilməsi də prioritetdir.

"2025-ci ildə qeyri-neft sektorumuz daha da genişlənib. Qeyri-neft sektorunda ümumi daxili məhsulumuz 92,3 milyard manata çatıb. 2024-cü illə müqayisədə bu, 2,7 faizlik real artımdır. Xam neftin ötən il ortaillik qiyməti 71 dollara bərabər olub. Ortaillik inflyasiyamız 5,6 faiz, manatın məzənnəsi...

Bax səh. 5

## Adalar ölkəsi çətin seçim qarşısında...



Bax səh. 6

## Tehrana qarşı yeni sanksiya




Bax səh. 6

# Sülh sazişi nə vaxt imzalanacaq?

## Azərbaycanın post-müharibə strategiyası regionun yeganə inkişaf yoludur

### Ermənistanda keçirilən seçkilər bu faktı bir daha təsdiqlədi

Aylardır regional siyasi gündəmin əsas mövzularından olan Ermənistandakı parlament seçkiləri başa çatdı. Nikol Paşinyanın rəhbərlik etdiyi Vətəndaş Müqaviləsi Partiyasının qələbəsi yalnız Ermənistanın siyasi orbital vəziyyətinin dəyişməsinin təsdiqi kimi deyil, həm də Azərbaycanın bölgədə yaratdığı yeni reallıqların qəbulu kimi təhlil olunur. Artıq parlamentdə mütləq çoxluğu qazanan Vətəndaş Müqaviləsi Partiyası hökuməti təkbaşına qurmaq imkanı qazanıb - beləliklə, Nikol Paşinyan seçki təbliğatı zamanı "çardağına" sığındığı sülh prosesini reallaşdırmaq üçün fəaliyyətə keçməlidir.

**Paşinyanın hədəfləri - avrointeqrasiya şüarları effekt vemirdi...**

Seçki prosesində Paşinyanın məhz "sülh çardağı" altına sığınması məsələsi niyə bu qədər vacib bir nüansdır? Diqqət yetirsək, seçkinin ilkin nəticələri bəlli olan zaman Nikol Paşinyan keçirdiyi mətbuat konfransında "üçbaşlı müharibə partiyası" (Güclü Ermənistan Partiyası, Ermənistan bloku və Çiçəklənən Ermənistan Partiyası) üzərində qələbəni qeyd etdiyini bildirdi - bu amil olduqca önəmlidir. Unudulmamalıdır ki, Paşinyan seçkiyə iki əsas prioritet (həm də seçki sloqanı) ilə qatılmışdı:

- Avropaya inteqrasiya;
- Sülh prosesinin uğurla yekunlaşdırılması.



Diqqət yetirsək, seçki təbliğatının ilk günlərindən etibarən özünün və komandasının Avrointeqrasiya yolunu seçdiyini bəyan etmiş Paşinyan sonrakı günlərdə bu amildən "siyasi istinad" kimi istifadə edə bilmədi. Bunun da obyektiv səbəbləri var.

A) Birincisi, Paşinyanın təqdim etdiyi avrointeqrasiya prosesini və ya proqramını Ermənistan əhalisi hələ də tam dərk edə bilmir. Daha doğrusu, bu prosesin onların həyatına hansı təsiri göstərəcəyində tərəddüd edir. Ərzaq Rusiyadan təchiz olunur, enerji Rusiyadan verilir, qaz Rusiyadan alınır, taxıl Rusiyadan gəlir, hətta ölkə əhalisinin mühüm əksəriyyəti Rusiyadan göndərilən pullarla ayaqda qala bilir;

B) 44 günlük Vətən müharibəsi zamanı məhz Rusiyanın xahişi ilə Azərbaycan Ermənistanın kapitulyasiya imzalamasına razılıq verdi. Ermənilər anlayır ki, Azərbaycanın gücü və qüdrəti olduqca yüksək səviyyədədir. İllərdir ki, Rusiyanın həm də təhlükəsizlik çətiri altında yaşayan ermənilər Avropanın müharibə dövründə heç nə edə bilmədiklərini açıq şəkildə görmüşdülər.

C) Və ən əsas məsələlərdən biri, Gümrüdəki 102-ci hərbi bazadır. Ermənistan üzərində "Domokl qılıncı" kimi dayanan bu hərbi bazanın seçkinin obyektiv nəticələrlə bitəcəyinə sakit şəkildə baxacağına ermənilər inanmırdılar. Xüsusilə, Kremlin seçki dövründə bir neçə istiqamətdən Paşinyana təsir göstərdiyi bir fonda...

Bu baxımdan, Ermənistan seçicisi üçün Avropaya intqerasiya predmeti sandıq başında "seçki gözləntisi" kimi o qədər də aktual deyildi. Onlar anlayırdılar ki, məhz işğalçılıq, talançılıq, təcavüzkarlıq siyasəti nəticəsində SSRİ-nin süqutundan 40 ilə yaxın bir dövr keçməsinə baxmayaraq Ermənistan hələ indi keçid dövrünü yaşamaq məcburiyyətindədir. Nə qədər qeyri-adi gəlsə də, Ermənistan hələ də SSRİ-dən qopmaq üçün "mübarizə" aparır.

**Azərbaycanın yaratdığı reallıqların kölgəsində...**

Vurğulandığı kimi, seçki təbliğat kampaniyası dövrünün ilk günlərində avrointeqrasiya məsələsini ön planda tutan Nikol Paşinyan çox qısa zamanda anladı ki, bu istiqamət onun "üçbaşlı müharibə partiyası" üzərində qələbəsini təmin etməyəcək (hətta edəcəkdisə belə, bu qədər açıq fərq olmayacaqdı). Özünün əsas rəqibləri üzərindəki üstünlüyünü təmin etmək üçün Paşinyan təşviqat tezislərini dəyişdi və Azərbaycanın bölgədə formalaşdırdığı reallıqların kölgəsinə sığındı. Təsadüfi deyildi ki, hətta rəqibləri belə Paşinyanın Azərbaycanın qətiyyəti ilə yaranan reallıqların təbliği üzərindən aparılan təbliğatına qarşı antitezislərinin mövcud olmadığını etiraf edirdilər. Paşinyanın yeni seçki sloqanları da yenilənmişdi:

- Ermənistan sülhü imzalamağa hazırdır;
- Bölgədə əməkdaşlıq mühitinə tam riayət olunacaq;
- TRİPP layihəsi reallaşacaq.

Diqqət yetirsək, hər üç prinsip məhz Azərbaycanın son 6 ildə ortaya qoyduğu qətiyyətin bəhrəsidir. Paşinyan özü də bunu etiraf etdi - seçkidən sonra keçirdiyi mətbuat konfransında bildirdi ki, son parlament seçkilərində erməni xalqı SÜLHƏ, REGIONAL İNKIŞAFA VƏ ƏMƏKDAŞLIĞA səs verib. Bəli, 44 günlük Vətən müharibəsindən sonra qalib tərəf olmasına baxmayaraq, məhz Azərbaycan sülh təşəbbüsü ilə çıxış etdi. Prezident İlham Əliyev regionda davamlı sabitliyin təmin olunması üçün Ermənistanla münasibətlərin normallaşdırılmasını təklif etdi və bunun üçün beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan baza prinsiplərini irəli sürdü. Bu yanaşma Azərbaycanın regionda uzunmüddətli sülh və əməkdaşlıq mühiti yaratmaq niyyətini nümayiş etdirdi. Məhz bu siyasət nəticəsində regionda yeni əməkdaşlıq imkanları formalaşmağa başladı. Ermənistan rəhbərliyi də tədricən başa düşdü ki, qarşıdurma siyasətinin davam etdirilməsi ölkənin inkişaf perspektivlərinə xidmət etmir və sülh gündəliyi daha rasional seçimdir. Məhz bu rasional seçim nəticə etibarı ilə Paşinyanın partiyasının seçkidə 64 mandat qazanmasına imkan verdi.

**Qərb seçkidən çox sülhü alqışlayır...**

Maraqlı bir nüans daha var - Nikol Paşinyanın partiyasının qələbəsi elan edildikdən həmən sonra erməni baş nazirə yönələn təbriklər. Diqqəti cəlb edən məqam odur ki, seçkilərdən sonra Avropa Komissiyasının prezidenti Ursula fon der Leyenin, Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Kaya Kallasın və Avropa Şurasının prezidenti Antonio Costanın fikirləri də eyni tezis üzərində cəmlənmişdi - "Erməni xalqı sülhə, sabitliyə və qonşuları ilə daha sıx əməkdaşlığa əsaslanan gələcəyə səs verdi".

Vaşinqtondan gələn təbrik də eyni xətləri özündə əks etdirdi. ABŞ Dövlət Katibi Marko Rubio Nikol Paşinyanı Ermənistandakı seçki qələbəsi münasibətilə təbrikində bildirir: "Amerika Birləşmiş Ştatları sülhün irəliləməsində Baş nazir Paşinyanın və Ermənistanın yanındadır və Vaşinqtonda keçirilən tarixi sülh sammitinin məqsədlərinə, o cümlədən Trampın Sülh və Rifaha Doğru Beynəlxalq Yolunun (TRIPP) həyata keçirilməsinə sadiqdir. Cənubi Qafqazda və ondan kənarda sülhün, sabitliyin və rifahın təmin edilməsi üçün birgə işləməyə davam etməyi səbirsizliklə gözləyirik".

Başqa sözlə, Bakının bölgədə yaratdığı reallıqların yeganə və ən praqmatik yol olması, məhz bu yolun vəd etdiyi perspektivin Paşinyanın qələbəsində əsas rol oynaması faktı Qərb tərəfindən etiraf olundu. Artıq hər kəs anlayır və qəbul edir ki, Azərbaycanın post-müharibə dövründə formalaşdırdığı regional inkişaf proqramı, strateji yol xəritəsi qlobal dünya üçün nə qədər vacib mahiyyət daşıyır. Yeni Şərq-Qərb kontentinin formalaşdırılması, əməkdaşlıqların (həm iqtisadi, həm ticari, həm də siyasi) yeni seqmentlərinin yaradılması Bakının beynəlxalq nizama yeni yön verməsi idi. Xüsusilə, bu qətiyyətin, bu strateji yol xəritəsinin Vaşinqtonda təsdiqlənməsi vacib bir amil idi. Nəzər salsaq, Paşinyana yönələn təbriklərin hər birinin mahiyyətində məhz sülh və əməkdaşlıq məsələsi qırmızı xətlə keçir. Bu isə ona dəlalət edir ki, Ermənistanda son parlament seçkilərində Azərbaycanın sülh proqramı, əməkdaşlıq dividendləri, regional inkişaf hədəfləri qələbə qazanıb.

**Revanşizmin açıq məğlubiyyəti - Köçəryanın səngərləri 2020-ci ildə dağıdılıb**

Seçkidən sonra "revanşist cəbhədə" ölü bir sükut hökm sürür. Düzdür, arası epizodik səslər eşidilsə də, bunlar arqumentləşdirilə bilməyən hikkədən o yana getmir. Məsələn, "öz səngərimizi tərk etməyəcəyik" deyən Robert Köçəryan deyəsən unudur ki, Azərbaycan məhz onun qurduğu səngərləri 2020-ci ildə darmadağın edib. Köçəryanın Paşinyana xitabən "o getməsə çox pis başa çatacaq" hədəsi də artıq işə yaramır. Əli qana batmış cinayətkar anlayır ki, artıq hüquq qarşısında cavab verməyin zamanı çatıb və bundan qaçıb qurtulmaq üçün yenidən Ermənistanda qarşıdurma, terror yaratmağa çalışır. Bu və ya digər şəkildə onun əli və ya sifarişi ilə 1999-cu ilin oktyabrında Ermənistan parlamentində törədilən qətliama işarə edən Köçəryan başa düşmür ki, artıq onun qatarı gedib və özü ilə müharibə, işğal arzularını da aparıb.

Və ya 0,004 faiz səs üçün yenidən sayım iddiaları ortaya qoyan Tsarukyan anlayır ki, hətta seçki baryerini aşsa idi belə "dostlarına" heç bir kömək edə bilməyəcəkdi. Onların himayədarları da başa düşür ki, sülh qarşısıalınmaz bir prosesdir və buna mane olmağa heç kimin gücü çatmayacaq.

Ermənistan ictimaiyyəti də artıq demək olar ki, eyni fikri bölüşür - ölkənin gələcəyi sülh və əməkdaşlığa əsaslanır. İstər siyasi şərhçilər, istər partiya sədrləri bu fikri bölüşürlər ki, yeni dövrdə Azərbaycanın işıq tutduğu yol bütövlükdə Cənubi Qafqaz üçün yeganə inkişaf xəttidir. Ermənistanın prezidenti Vaaqn Xaçaturyan da öz xalqına müraciətində bildirib ki, yaxşı gələcək üçün sülh mütləq şərtdir.

**Sülh üçün - Konstitusiya dəyişikliyi zərurətə çevrilir...**

Bəli, nəhayət Ermənistanda parlament seçkiləri başa çatdı və artıq gözlər sülhlə bağlı atılacaq qəti addımlara dikilib. Məhz sülh sloqanı ilə qələbə qazanan Paşinyan çox qısa bir zamanda bu addımı gerçəkləşdirə bilər - bunun üçün Konstitusiya dəyişməli, Azərbaycanın irəli sürdüyü şərt yerinə yetirilməli, ölkəmizə qarşı əsassız ərazi iddiası aradan qaldırılmalıdır. Bunu etmək üçün isə Paşinyanın əlində kifayət qədəi imkan var - həm ölkə ictimaiyyəti seçkidə Paşinyanın dilindən səslənən Azərbaycanın sülh proqramını seçdiyini göstərdi, həm də parlamentdə əldə edilən mütləq çoxluq bunun reallaşmasına açıq yardım edə bilər. Beləliklə, Ermənistan hakimiyyəti bu və ya digər şəkildə Konstitusiyada dəyişiklik etmək imkanına malikdir. Seçkiyə qədərki proseslər göstərirdi ki, Paşinyan bunu etməyə razıdır. Hətta bir neçə ay öncə yeni Konstitusiyanın qəbulu ilə bağlı anonslar da eşidilmişdi. İndi isə bu işə ciddi şəkildə yanaşmaq zamanıdır. İtirilən hər gün Ermənistanın ziyanına, Paşinyanın rəqiblərinin xeyrinə işləyir...

*Pərviz SADAYOĞLU*



# Aqrar sahəyə dövlət dəstəyi genişləndirilir

## Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması qaydası yenilənib

Prezident İlham Əliyevin imzaladığı müvafiq Fərmana əsasən, "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi haqqında", "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" və "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" fərmanlarına dəyişiklik edilib. Həmçinin, "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"də bəzi dəyişikliklər olunub. Dəyişikliklər kənd təsərrüfatı sektorunda güzəştlərin əhatə dairəsinin genişləndirilməsi və subsidiya təminatının daha da yaxşılaşdırılmasını, texnikavə texnoloji avadanlıqlara münasibətdə kənd təsərrüfatı texnikası parkının yenilənməsini, innovativ texnologiyalara olan ehtiyacın ödənilməsini, yerli istehsalın dəstəklənməsini, aqrar resursların səmərəli istifadəsini nəzərdə tutur.

**Fermerlərə avans veriləcək**

Dəyişikliklərdən biri bağçılıq subsidiyasının verilməsində yeni qaydaların tətbiqidir. Bağçılıq subsidiyası fermerlərə çoxillik əkmələrin altında olan torpaqlarda həmin torpaqların məqsədli təyinatına uyğun olaraq kənd təsərrüfatı bitkilərinin becərilməsi (əkilməsi və aqrotexniki qulluğun göstərilməsi) üçün bağın salındığı birinci ildə istifadə etdikləri kənd təsərrüfatı istehsal vasitələrinin alınmasına, torpaqların aqrokimyəvi analizinin aparılmasına, aqrotexniki xidmətlərdən istifadə edilməsinə, müasir suvarma sistemlərinin qurulmasına və tinglərdə fitopatoloji analizlərin aparılmasına sərf olunan xərclərin bir hissəsini kompensasiya etmək məqsədilə bitki becərilən sahənin hər hektarına görə veriləcək. Bağçılıq subsidiyasının tətbiqi üçün regionlar üzrə bitkilərin siyahısının, onlara tətbiq edilən əkin əmsallarının, avans məbləğinin, bağın salınması və subsidiyanın tətbiqi dövrünün, sığortalanmalı olan bitkilərin siyahısı yenidən müəyyənləşmkələ əkin sahələrinin minimum ölçüsünə dair tələblərə uyğun veriləcək.

Yeniliklərdən biri sertifikatlaşdırma subsidiyasıdır. Bu mexanizm fermerlər tərəfindən bitkiçilik və heyvandarlıq sahələrində beynəlxalq sertifikatların alınması və bu məqsədlə təsərrüfatların müəyyən olunmuş tələblərə uyğunlaşdırılması ilə bağlı çəkilən xərclərin bir hissəsinin kompensasiya edilməsini nəzərdə tutur. Bu çərçivəyə uyğun olaraq mülkiyyətçilərə avans ödəniləcək. Fermerlər tərəfindən bitkiçilik sahəsində aqrotexniki tədbirlərin vaxtında həyata keçirilməsini stimullaşdırmaq məqsədilə əkin və bağçılıq subsidiyalarının məbləğinin, 60 faizdən çox olmamaqla, Aqrar Subsidiya Şurası tərəfindən avans müəyyən ediləcək.

**Heyvandarlıq və balıqçılıq üçün subsidiya qaydaları**

Fermerlərə kənd təsərrüfatı heyvanlarının saxlanılması, yemlənməsi və damazlıq işinin təşkili ilə bağlı çəkilən xərclərin bir hissəsini kompensasiya etmək məqsədilə hər bir heyvana subsidiya veriləcək. Bundan başqa, heyvandarlıq sahəsində də subsidiya rejimi və təchizatı daha da dayanıqlı olacaq. Belə ki, yerli heyvanların cins tərkibinin yaxşılaşdırılması və yüksək məhsuldar genetik potensiala malik heyvanların baş sayının artırılması məqsədilə süni mayalanma yolu ilə alınan hər bir sağlam buzova və balağa (camış balasına) görə verilən subsidiyanın əhatəsi artırılacaq.

Fərmana əsasən, Azərbaycanda balıqçılıq müəssisələri də Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin (AKİA) xətti ilə güzəştli kredit ala biləcəklər. Bu məqsədlə Agentliyin vəsaitindən istifadə qaydası dəyişdirilib. Belə ki, bundan sonra Agentliyin vəsaiti kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqlarına, balıqçılığın, o cümlədən akvakulturanın həyata keçirilməsi üçün istifadə olunan texnika və texnoloji avadanlıqlara, suvarma sistemləri dəstlərinə və avadanlıqlarına, habelə damazlıq heyvanlara verilən güzəştlərin maliyyələşdirilməsinə yönəldiləcək.

**Pambıq mahlıcı və ipliyi üçün yeni subsidiya**

Həmçinin, bundan sonra pambıq mahlıcı və ipliyi üçün məhsul subsidiyası da tətbiq ediləcək. "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda əks edilmiş mühüm priortetlərdən biri kimi pambıqçılığa dövlət dəstəyi tədbirlərinin artırılması nəzərdə tutulub. Bu məqsədlə yeni fərmana əsasən, iplik və parça istehsalının təşviq edilməsi üçün güzəştli kreditlərin ayrılması, ipək və xalçaçılıq üzrə emal sahələrinin institusional təkmilləşdirilməsi, pambıq mahlıcı və ipliyi üçün məhsul subsidiyasının tətbiq edilməsi nəzərdə tutulub. Eyni zamanda, azı 2 yeni iplik və ya parça emalı müəssisəsinin dəstəklənməsi, pambıq mahlıcının iplik istehsalına yönəldilən hissəsinin, eləcə də ipliyin parça istehsalına yönəldilən hissəsinin artırılması planlaşdırılır.

Yeni qaydalara görə, Azərbaycanda güzəştlə alınmış aqrar texnikanın ixracı da məhdudlaşdırılacaq. Belə ki, güzəştli şərtlərlə maliyyələşdirilən kənd təsərrüfatı texnikasının maliyyələşdirildiyi tarixdən 5 il müddətində ölkədən ixracına yol verilməyəcək. Aqrar texnika barədə məlumatlar real vaxt rejimində "Elektron kənd təsərrüfatı" informasiya sistemi vasitəsilə Dövlət Gömrük Komitəsinin informasiya sisteminə ötürüləcək. Yeni mexanizm bu sahədə hesabatlılığın, şəffaflığın artmasına, büdcə vəsaitlərinin səmərəli istifadəsinin təmin edilməsinə, fermerlər üçün müraciətlərin sadələşdirilməsinə, elektronlaşdırılaraq asanlaşdırılması və əlçatan olmasına xidmət edir.

Ümumilikdə, aqrar sahədə məhsul istehsalı və emalı üzrə subsidiyalaşdırma qaydalarının yenilənməsi və dövlətin əlavə maliyyə təminatlarının verilməsi kənd təsərrüfatının inkişafında müsbət meyilləri gücləndirəcək. İlk növbədə, bundan sonra daha çox fermer subsidiya ilə əhatə olunacaq və onların maliyyə xərclərinin bir hissəsinin dövlət tərəfindən qarşılanması istehsal və emal xərclərinin azalmasına səbəb olmaqla kənd təsərüfatı məhsullarının istehsalının artmasına səbəb olacaq. Bu mexanizmlər həmçinin aqrar sahədə məhsulların maya dəyərinə də öz müsbət təsirlərini göstərəcək.

*E.CƏFƏRLİ*

# 10-cu üçtərəfli görüş...

## İstanbul Bəyannaməsində nələr əks olunub?

Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki yeri və rolu davamlı olaraq artmaqdadır. Müstəqil və milli maraqlara söykənən xarici siyasət kursu bu məsələdə əhəmiyyətli rol oynayır. Beynəlxalq münasibətlər sisteminin müstəqil subyekti olaraq Azərbaycan özünün xarici siyasət kursunda qarşılıqlı tərəfdaşlığa, ikitərəfli maraqlara əsaslanan əməkdaşlığa və çoxvektorlu yaxın əlaqələrə əsaslanır. Bu gün ölkəmiz ilə dünyanın əksər dövlətləri və təşkilatları arasındakı münasibətlər məhz bu müstəvidə tənzimlənir, hüquqi çərçivəsini müəyyənləşdirir. Eyni zamanda, Azərbaycan hər zaman münasibətlərin inkişafında ən mühüm detal olaraq səmimi münasibətlərə üstünlük verir.

### Üçtərəfli platforma ənənəsi...

Ölkəmizin yürütdüyü dövlət siyasətində qonşu ölkələrlə əlaqələrin inkişafı xüsusi yer tutur. Azərbaycan hər zaman öz qonşuları ilə əlaqələrin möhkəmləndirməsi, daha da yaxınlaşdırılması istiqamətində fəaliyyət göstərir. Yerləşdiyimiz Cənubi Qafqaz regionu geosiyasi baxımdan strateji əhəmiyyət daşıdığı üçün region ölkələrinin yaxın qonşuluq münasibətləri zəminində əməkdaşlığına hər zaman böyük ehtiyac duyulub. Ona görə də, Azərbaycan qonşu ölkələrlə normal qarşılıqlı əlaqələrin gücləndirməsinə hər zaman böyük önəm verib. Qarşılıqlı əlaqələrin gücləndirilməsi prosesində üçtərəfli görüş platforması bu mənada əhəmiyyət kəsb edir. Məsələn, Azərbaycan, Türkiyə və Gürcüstanın dövlət başçıları, xarici işlər və müdafiə nazirləri mütəmadi olaraq görüşürlər. Bu, artıq ənənə halını alıb. Bu ənənə uğurla davam etdirilir.

Yeri gəlmişkən, iyunun 8-də İstanbul şəhərində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun, Gürcüstanın xarici işlər naziri Maka Boçorişvilinin və Türkiyənin xarici işlər naziri Hakan Fidanın iştirakı ilə Azərbaycan-Gürcüstan-Türkiyə xarici işlər nazirlərinin 10-cu üçtərəfli görüşü keçirilib. Görüşdə nazirlər üçtərəfli əməkdaşlığın gələcək inkişaf perspektivlərini və digər regional təhlükəsizlik məsələlərini müzakirə ediblər. Xarici İşlər Nazirliyindən verilən məlumata görə, görüşdə çıxış edən nazir Ceyhun Bayramov mövcud beynəlxalq şəraitdə geosiyasi gərginliyin artması, təchizat zəncirlərində yaranan çətinliklər və iqtisadi qeyri-müəyyənliklər fonunda ölkələr arasında siyasi koordinasiya və qarşılıqlı fəaliyyətin xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. Bu baxımdan, Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlıq formatının regional sabitlik, təhlükəsizlik və inkişaf üçün mühüm platforma olduğu qeyd edilib. Bakıda Parlamentlərin Xarici Əlaqələr Komitələrinin 10-cu üçtərəfli görüşünün, Gürcüstanda 7-ci Biznes Forumunun və Ankarada Müdafiə Nazirlərinin sonuncu üçtərəfli görüşünün tərəfdaşlığımızın hərtərəfli və çoxşaxəli xarakter qazandığını nümayiş etdirdiyi vurğulanıb.

### Orta Dəhlizin inkişafında üç ölkə mühüm rol oynayır

Nazir çıxışında Azərbaycan-Gürcüstan-Türkiyə əməkdaşlığının regional sabitlik və iqtisadi inkişafın əsas hərəkətverici qüvvələrindən biri olduğunu qeyd edərək Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Cənub Qaz Dəhlizi və Bakı-Tbilisi-Qars dəmir yolu kimi strateji layihələrin uğurla həyata keçirilməsinin tərəfdaşlığın nəticəyönümlü xarakterini nümayiş etdirdiyini bildirib. C.Bayramov enerji sahəsində əməkdaşlığın üçtərəfli tərəfdaşlığın təməl istiqamətlərindən biri olduğunu da qeyd edib. Azərbaycanın hazırda 16 ölkəyə təbii qaz ixrac etdiyi vurğulanaraq, Azərbaycan ilə Gürcüstan arasında təbii qazın alqı-satqısı müqaviləsinin müddətinin uzadılması, eləcə də SOCAR və BOTAŞ arasında "Abşeron" yatağının ikinci mərhələsindən qaz tədarükünə dair əldə edilmiş razılaşmanın enerji təhlükəsizliyinin gücləndirilməsinə mühüm töhfə verəcəyi bildirilib.

Nəqliyyat və bağlantılar sahəsində əməkdaşlığa toxunan nazir Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) inkişafında üç ölkənin mühüm rol oynadığını qeyd edib. Bakı-Tbilisi-Qars dəmir yolunun modernləşdirilməsinin başa çatdırılması və Bakı-Tbilisi-Bakı sərnişin qatarı reyslərinin bərpasının regional mobilliyə əlavə töhfə verəcəyi vurğulanıb. Eyni zamanda, TRIPP layihəsinin icrası və Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqənin təmin edilməsinin regional əməkdaşlığın və etimad quruculuğunun mühüm elementi olduğu bildirilib.

Çıxışda, həmçinin İKT, yüksək texnologiyalar, kənd təsərrüfatı, su ehtiyatlarının idarə olunması və turizm sahələrində əməkdaşlığın genişləndirilməsi üçün əhəmiyyətli potensialın mövcud olduğu diqqətə çatdırılıb. Həmçinin təhlükəsizlik, terrorizmlə mübarizə, transmilli mütəşəkkil cinayətkarlıq, kiber təhdidlər və iqlim dəyişikliyi kimi çağırışlar qarşısında daha sıx koordinasiyanın vacibliyi qeyd olunub.

C.Bayramov Türkiyənin Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasına (COP31) ev sahibliyi etməyə hazırlaşdığı dönəmdə ölkəmizin dəstəyini bir daha ifadə edib. Nazir, eyni zamanda Azərbaycanın Türkiyə və Gürcüstan ilə üçtərəfli tərəfdaşlığın daha da dərinləşdirilməsi, regionun dayanıqlı inkişafı, təhlükəsizliyi və rifahı naminə əməkdaşlığı davam etdirməyə hazır olduğunu vurğulayıb.




### Region üçün real imkan pəncərəsi açılıb

Çıxış zamanı Ermənistan ilə münasibətlərin normallaşdırılması prosesinə də toxunulub. Azərbaycanın sülh quruculuğu təşəbbüslərinin və etimad quruculuğu tədbirlərinin normallaşma gündəliyinin irəliləməsinə mühüm töhfə verdiyi qeyd olunub. Eyni zamanda, mövcud imkanı qalıcı sülhə çevirmək üçün münasibətlərin tam normallaşmasına mane olan açıq məsələlərin həll edilməsinin vacibliyi vurğulanıb.

Nazir Yaxın Şərqdə davam edən gərginliklərin regional və qlobal təhlükəsizliyə mənfi təsir göstərdiyini bildirib, münaqişələrin beynəlxalq hüququn norma və prinsipləri əsasında, dialoq və diplomatik vasitələrlə həllinin vacibliyini diqqətə çatdırıb.

Türkiyənin xarici işlər naziri Hakan Fidan bildirib ki, regionumuzun münaqişələrlə deyil, inkişaf layihələri ilə, parçalanma ilə deyil, ortaq rifah təşəbbüsləri ilə tanınması ən böyük arzumuzdur. Bu baxışın ən ümidverici təzahürünü bu gün Azərbaycan ilə Ermənistan arasında gedən sülh prosesində görürük. Tərəflərin nümayiş etdirdiyi iradə regionumuz üçün real imkan pəncərəsi açıb.

"Azərbaycan ilə Ermənistan arasında sülh prosesini dəstəkləyirik. Azərbaycanın qanuni narahatlıqlarının aradan qaldırılmasını və sülh sazişinin gecikdirilmədən imzalanmasını da arzulayırıq. Ermənistanla apardığımız normallaşma prosesi də Azərbaycanla sıx koordinasiya şəraitində davam edir. Son dörd il ərzində bu istiqamətdə mühüm irəliləyişlər əldə olunub", - deyən nazir əlavə edib ki, bütün regionun ortaq maraqlarına xidmət edən bu müsbət dövrü inkişaf etdirmək üçün fəaliyyətlər qətiyyətlə davam etdirilir.

Üç ölkənin əməkdaşlığı mehriban qonşuluq prinsiplərinə əsaslanır

Gürcüstanın Baş nazirinin müavini və xarici işlər naziri Maka Boçorişvili isə qeyd edib ki, Gürcüstanın Türkiyə və Azərbaycanla strateji tərəfdaşlığı və möhkəm əməkdaşlığı mehriban qonşuluq və dostluq prinsiplərinə əsaslanır. Bu iki ölkə Gürcüstanın əsas ticarət tərəfdaşları sırasındadır. Qarşılıqlı əməkdaşlıq siyasi, iqtisadi, nəqliyyat, enerji, mədəniyyət, texnologiya və digər sahələri əhatə edir.

"Azərbaycan və Ermənistan arasında münasibətlərdə müşahidə olunan müsbət dinamikanı alqışlayırıq və hesab edirik ki, bu proses regionda sülh və sabitliyin möhkəmlənməsinə xidmət edəcək. Gürcüstan regionda sülhün və konstruktiv əməkdaşlığın təşviqi istiqamətində səylərini davam etdirməyə hazırdır. Eyni zamanda, Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan addımları da dəstəkləyirik", - deyə Maka Boçorişvili bildirib.

Qeyd edək ki, yekunda nazirlər tərəfindən üçtərəfli görüşün nəticələrinə dair İstanbul Bəyannaməsi imzalanıb. İstanbul Bəyannaməsində nazirlər ölkələri arasında dərin dostluq, mehriban qonşuluq, qarşılıqlı hörmət və etimad ənənələrinə əsaslanan mükəmməl münasibətləri vurğulayıblar. Tərəflər arasında siyasi, iqtisadi, ticarət, sülh və təhlükəsizlik, elm və texnologiya və mədəniyyət sahələri daxil olmaqla, qarşılıqlı maraq doğuran bütün sahələrdə mövcud güclü əməkdaşlığı daha da irəli aparmaq istəyi ifadə edilib.

Sənəddə dövlətlərin bir-birinin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına güclü və birmənalı dəstəyi bir daha təsdiq edilib. Regional və qlobal çağırışları dəf etmək üçün güclü üçtərəfli əməkdaşlığın əhəmiyyəti vurğulanıb, regionun potensialının tam reallaşdırılması məqsədilə regional sülh, təhlükəsizlik və sabitliyin əhəmiyyəti qeyd edilib.

### Növbəti görüş Gürcüstanda keçiriləcək

Bəyannamədə Bakı-Tbilisi-Ceyhan Boru Kəməri və Cənub Qaz Dəhlizinin regional və Avropanın enerji təhlükəsizliyinə strateji töhfəsi yüksək qiymətləndirilib. Trans-Xəzər Şərq-Qərb Orta Dəhlizi daxil olmaqla, ölkələrin tranzit potensialının gücləndirilməsi istiqamətində atılan mühüm addımların əsas rolu vurğulanıb. Gürcüstanın Axalkalaki Beynəlxalq Dəmir Yolu Stansiyasında BTQ Dəmir Yolu Layihəsi çərçivəsində modernləşdirmə işlərinin başa çatması münasibətilə keçirilən tədbiri alqışlanıb.

Sənəddə yaşıl enerjinin nəqli və ticarəti məqsədli interkonnektorlardan istifadə də daxil olmaqla, bu tərəfdaşlığın davam etdirilməsinə və daha da genişləndirilməsinə tam dəstək bir daha təsdiqlənib.

Bərpaolunan enerjidən səmərəli istifadə daxil olmaqla, dayanıqlı enerji sahəsində əməkdaşlığın dəstəkləndiyi Bəyanatda ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizə üzrə regional əməkdaşlığın inkişaf etdirilməsi və gücləndirilməsinin vacibliyi vurğulanıb. Bu çərçivədə, Türkiyənin Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının 31-ci sessiyasına (COP31) sədrliyi alqışlanıb, Azərbaycanın Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasına (WUF13) uğurlu ev sahibliyi və onun beynəlxalq əməkdaşlığın, dialoqun və dayanıqlı inkişafın irəliyə aparılmasına verdiyi töhfə yüksək qiymətləndirilib.

Nazirlər terrorizmin bütün forma və təzahürləri, transmilli mütəşəkkil cinayətkarlıq, o cümlədən silahların, narkotiklərin və onların prekursorlarının qanunsuz dövriyyəsi, insan alveri, miqrant qaçaqmalçılığı, çirkli pulların yuyulması, mədəni və tarixi irsə qarşı cinayətlər və kibercinayətkarlıqla mübarizə məqsədilə müvafiq beynəlxalq və regional alətlərə uyğun olaraq əməkdaşlığın gücləndirilməsinə sadiqliklərini bir daha yeniləyiblər.

Sənəddə üçtərəfli görüşlərin müntəzəm keçirilməsinin vacibliyi vurğulanıb və 11-ci Üçtərəfli Görüşün 2027-ci ildə Gürcüstanda keçirilməsinə qərar verildiyi qeyd olunub.

*Nardar BAYRAMLI*



# Siyasi partiyaların fəaliyyətində yeni inkişaf mərhələsi

**Prezident Administrasiyasında Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu ilə görüş keçirilib**

İyulun 9-da Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev cari ilin 9 iyun tarixində Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu ilə görüşüb. Partiyanın Mətbuat xidmətindən verilən məlumata görə, görüş zamanı bir sıra önəmli məsələlər ətrafında söhbət aparılıb. Belə ki, dövlət tərəfindən həyata keçirilən təşəbbüslər sayəsində siyasi partiyaların fəaliyyətində yeni inkişaf mərhələsinin yaşandığı vurğulanıb. Bildirilib ki, "Siyasi partiyalar haqqında" Qanunun qəbulundan sonra partiyaların inkişafı üçün yeni institusional fürsətlər yaranıb. Müşahidə olunan dəyişikliklər siyasi partiyaların gündəlik fəaliyyətinə də müsbət təsir edir.

Görüşdə təşviq olunan siyasi dialoqun nəticəsində partiyaların artan ictimai nüfuzu, partiya sədrlərinin mediada çıxışları, müxtəlif məsələlərə həsr olunmuş təkliflərin aidiyyəti üzrə təqdim olunma imkanlarının yaradılması, habelə sağlam əməkdaşlıq mühitinin qorunması ilə bağlı olan məsələlər müzakirə olunub. Vurğulanıb ki, bilavasitə Prezident İlham Əliyevin təşəbbüsü ilə mövcud istiqamətdə görülən işlər ilk növbədə milli birliyin qorunmasına xidmət edir. Siyasi partiyaların sərbəst fəaliyyəti sayəsində eyni zamanda dövlətin demokratik ənənələri də davamlı olaraq inkişaf edir. Beynəlxalq münasibətlər sistemində müşahidə olunan münaqişələrin artımı fonunda strateji əhəmiyyət daşıyan milli birliyin qorunması istiqamətində siyasi partiyaların aktivliyi müstəsna əhəmiyyətə malikdir.

Dövlətin dayanıqlı inkişafı və siyasi sabitliyin qorunması, habelə müxtəlif səpgili informasiya təxribatlarının qarşısının alınmasında əməkdaşlıq əlaqələrinin mövcudluğunu yüksək dəyərləndirən Partiya sədri mövcud istiqamətlər üzrə hər zaman dəstək göstərəcəyini vurğulayıb.

Prezident Administrasiyasının rəsmisi görüşün sonunda fəal vətəndaşlıq mövqeyinə görə təşəkkür bildirib və milli maraqların qorunmasına yolunda Gələcək Azərbaycan Partiyasına müvəffəqiyyətlər arzulayıb.

# Milli Qurtuluşdan Zəfərə aparan şanlı yol











İyunun 9-da Yeni Azərbaycan Partiyası (YAP) və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr edilmiş “Milli Qurtuluşdan Zəfərə aparan şanlı yol” mövzusunda tədbir keçirilib.

Əvvəlcə nazirliyin inzibati binasında Ümummilli Lider Heydər Əliyevin büstü ziyarət olunub.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Rəşad İsmayılov 15 İyun - Milli Qurtuluş Gününün tarixi əhəmiyyətinə toxunaraq qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə gəlməsi müstəqillik yolunda ciddi dönüş yaratdı.

Nazir qeyd edib ki, dahi rəhbər ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi, eləcə də təbii sərvətlərdən səmərəli istifadə məsələlərinə xüsusi qayğı ilə yanaşırdı: “O, respublikamız üçün aktual olan ekoloji problemlərin həll edilməsi sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsinə rəhbərlik edib. Azərbaycana rəhbərliyinin birinci dövründə görkəmli dövlət xadimi Heydər Əliyev təbii sərvətlərin qorunmasına, yaşıllaşdırma tədbirlərinin miqyasının artırılmasına xüsusi önəm verirdi. Ulu Öndər Heydər Əliyevin iradəsi ilə 1969-1982-ci illərdə ekologiya, ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadəyə dair çox mühüm 8 qanun və 32 qərar qəbul olunub. Bəsitçay, Qarayazı, Ağgöl, Hirkan, Abşeron, İsmayıllı və Şirvan Dövlət Təbiət qoruqlarının yaradılması Ulu Öndərin 1969-1982-ci illərdə ölkəyə başçılıq etdiyi dövrə təsadüf edir. Eləcə də Zuvand, Daşaltı, Ordubad, Qubadlı, İsmayıllı və Kiçik Qızılağac Dövlət Təbiət yasaqlıqları da həmin dövrdə məhz Onun diqqət və qayğısı ilə yaradılıb. Ümummilli Lider Heydər Əliyev müstəqillik dövründə Azərbaycan Respublikasında flora və faunanın, təbiət abidələrimizin, nadir heyvanlar aləminin qorunması, mühafizə edilməsi istiqamətində konkret dövlət siyasətini müəyyən edib”.

Rəşad İsmayılov deyib ki, Azərbaycan müstəqillik qazanandan sonra da məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə yeni ekoloji siyasət formalaşıb, Bakı və Abşeronun yaşıllaşdırılmasına, ekoloji tarazlığın bərpasına daha böyük əzmkarlıqla başlanılıb. “Ulu Öndərin sədrliyi ilə yaranmış, hazırda isə Onun siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən, ideyalarını gerçəkləşdirən layiqli varisi Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında inkişaf edən və ölkədə ən geniş sosial bazaya malik olan siyasi partiya - Yeni Azərbaycan Partiyasına cəmiyyətdə böyük rəğbət formalaşıb. Nazirliyin bütün tabeli qurumlarında ümumilikdə 5 minə yaxın Yeni Azərbaycan Partiyası üzvünü birləşdirən partiya təşkilatlarının sıraları genişlənir və keyfiyyət cəhətdən təşkilatlanmaqda davam edir”, - deyən natiq əlavə edib ki, Yeni Azərbaycan Partiyasının üzvləri əmək fəaliyyətində fərqlənən əməkdaşlardır. Onun sözlərinə görə, son illərdə nazirliyin əməkdaşları, xüsusilə gənclər Yeni Azərbaycan Partiyası sıralarına üzv olmaq üçün fəal təşəbbüs göstərirlər.

Nazir onu da qeyd edib ki, ətraf mühitin mühafizəsi sahəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Yeni Azərbaycan Partiyası arasında sıx əməkdaşlıq edilir: “Belə ki, 2019-cu ilin 5 iyul tarixində ətraf mühitin mühafizəsi və ekoloji layihələrin həyata keçirilməsi istiqamətində birgə əməkdaşlıq məqsədi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Yeni Azərbaycan Partiyası arasında birgə fəaliyyət proqramı imzalanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin qarşısında duran vəzifələrin yerinə yetirilməsində, ətraf mühitin mühafizəsi sahəsində ideoloji işin təşkilində, dövlət siyasətinin təbliğində, dövlətə və hakimiyyətə etimadın gücləndirilməsində Yeni Azərbaycan Partiyası üzvlüyünü daşıyan nazirlik əməkdaşlarının məsuliyyəti daha böyükdür. Nazirlikdə çalışan Yeni Azərbaycan Partiyası üzvləri xüsusi fəallıq nümayiş etdirirlər və ölkədə həyata keçirilən çoxşaxəli dövlət siyasətinin əsas təbliğatçıları kimi çıxış edirlər”.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov 15 İyun - Milli Qurtuluş Gününün müasir dövlətçilik tariximizin ən şanlı səhifələrindən biri olduğunu qeyd edib: “Azərbaycan dövlətinin məhv olmaq təhlükəsindən xilası, müstəqilliyimizin dönməzliyinin, şərəfli Zəfər yolumuzun başlanğıcı kimi tarixə düşən bu gün xalqlider birliyinin təntənəsini əks etdirməklə həyatımızda yeni bir dövrün əsasını qoymuşdur. Hər birinizə məlumdur ki, dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan olduqca mürəkkəb və təhlükəli vəziyyətlə üz-üzə qalmışdı. Dövlət idarəçiliyində xaos hökm sürür, ölkədə vətəndaş qarşıdurması, parçalanma meyilləri güclənir və bütün bu proseslər Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, beynəlxalq münasibətlər sistemində hökm sürən böhran, günü-gündən dərinləşən iqtisadi tənəzzül fonunda baş verirdi. Belə bir ağır dönəmdə xalqımız çıxış yolunu zəngin dövlətçilik təcrübəsinə malik dahi şəxsiyyət Heydər Əliyevin ətrafında sıx birləşməkdə gördü”.

YAP Sədrinin müavini vurğulayıb ki, ümumxalq etimadının təzahürü kimi 91 nəfər ziyalının müraciəti əsasında 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılması və Heydər Əliyevin partiyaya Sədr seçilməsi müasir dövlətçilik tariximizin dönüş nöqtəsi oldu: “Azərbaycanın xilası naminə xalq Ulu Öndərə üz tutdu və respublikaya rəhbərlik etməsi barədə qətiyyətli çağırış etdi. Heydər Əliyev öz həyatını belə riskə ataraq, böyük fədakarlıq və vətənpərvərlik nümunəsi ortaya qoyaraq taleyüklü tarixi missiyanı, olduqca mürəkkəb siyasi məsuliyyəti üzərinə götürdü. Beləliklə, 33 il bundan əvvəl - 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Respublikası Ali Məclisinin Sədri seçilməsi tariximizə Milli Qurtuluş Günü kimi həkk olundu, Onun ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər sosial-iqtisadi yüksəliş, mədəni intibah və bütövlükdə müstəqil dövlət quruculuğu dövrü kimi yaddaşlara yazıldı”.

Tahir Budaqov bildirib ki, Ümummilli Liderin xalqımız qarşısında ən önəmli xidmətlərindən biri də siyasi varisliyin təmin olunmasıdır: “Bu uzaqgörən siyasət nəticəsində Azərbaycanın inkişafı davamlı xarakter almış və dövlətçilik ənənələri daha da möhkəmlənmişdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz iqtisadi qüdrətini əhəmiyyətli dərəcədə artırmış, regionun aparıcı dövlətinə çevrilərək beynəlxalq münasibətlər sistemində mövqelərini daha da möhkəmləndirmişdir. Bütün bunlar isə Azərbaycanın milli gücünün artmasını, müasir dövlətçilik tariximizin ən böyük nailiyyətlərinə və şanlı Zəfərə imza atmasını şərtləndirmişdir. Bu gün işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycanın qüdrətinin və gələcəyə aydın strateji baxışının parlaq nümunəsidir. “Yaşıl enerji zonası” elan olunmuş Qarabağ və Şərqi Zəngəzurda ən müasir infrastruktur yaradılır, yaşayış məntəqələri, sosial obyektlər və istehsal müəssisələri son standartlara uyğun qurulur. Azərbaycanın qədim memarlıq ənənələri ilə müasir şəhərsalma konsepsiyalarının vəhdəti əsasında görülən işlər dayanıqlı məskunlaşmaya xidmət göstərir və bütün bu proseslər ekoloji tarazlığın qorunması prioriteti gözlənilməklə baş verir. Bu gün Azərbaycan beynəlxalq miqyasda ətraf mühitin mühafizəsində, iqlim dəyişikliklərinə qarşı mübarizədə və dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsində fəal rol oynayan qabaqcıl ölkələrdəndir. Ekoloji təhlükəsizliyin təmin olunması, təbii ehtiyatlardan səmərəli istifadə və yaşıl inkişafın təşviqi dövlət siyasətinin əsas prinsipi kimi xüsusi diqqət mərkəzində saxlanılır”.

YAP Sədrinin müavini əlavə edib ki, Ümummilli Liderimizin qurucusu olduğu Yeni Azərbaycan Partiyası yarandığı gündən daim milli maraqların müdafiəsini, dövlət müstəqilliyinin möhkəmləndirilməsini, ictimai-siyasi sabitliyin və davamlı inkişafın təmin olunmasını öz fəaliyyətinin əsas istiqamətləri kimi müəyyən etmişdir: “Bu gün partiyamız cəmiyyətin müxtəlif təbəqələrini vahid məqsəd ətrafında birləşdirərək ölkəmizin tərəqqisinə öz töhfəsini verir. Şübhə yoxdur ki, Heydər Əliyev yoluna, Qurtuluş məfkurəsinə sədaqət nümayiş etdirən Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin liderliyi ilə bundan sonra da məqsədyönlü fəaliyyətini inamla davam etdirərək xalqımıza yeni uğurlar qazandıracaqdır. Hər birinizi qarşıdan gələn 15 İyun - Milli Qurtuluş Günü münasibətilə ürəkdən təbrik edir, möhkəm cansağlığı və şərəfli fəaliyyətinizdə davamlı nailiyyətlər arzulayıram”.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidmətinin Hüquqi təminat, insan resursları və sənədlərlə iş şöbəsinin aparıcı məsləhətçi - hüquqşünası Azad Əliyev isə çıxışında bildirib ki, xalqa və dövlətə xidmət Ulu Öndərin qurucusu olduğu, hazırda isə Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edən Yeni Azərbaycan Partiyasının fəaliyyətində xüsusi yer tutur: “Ölkə rəhbərliyinin həyata keçirdiyi siyasətin hər bir Azərbaycan vətəndaşı tərəfindən düzgün və dərindən dərk edilməsi zərurətə çevrilib. Bununla əlaqədar ideoloji işin gücləndirilməsi və səmərəliliyinin artırılması son dərəcə böyük əhəmiyyət kəsb edir. Bu istiqamətdə bizim - Yeni Azərbaycan Partiyasının üzvlərinin üzərinə böyük məsuliyyət düşür”.

Çıxış edən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsinin İnformasiya təminatı sektorunun məsləhətçisi Nərmin İsgəndərli qeyd edib ki, ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində, ətraf mühitin mühafizəsi sahəsində ideoloji işin təşkilində, dövlət siyasətinin təbliğində Yeni Azərbaycan Partiyasının üzvü olan nazirlik əməkdaşları aktiv iştirak edirlər: “Mən də bu proseslərdə daha fəal olmaq məqsədilə xalqımızın ən çox inandığı siyasi birliyə - Yeni Azərbaycan Partiyasının sıralarına qoşulmağa qərar vermişəm. Ulu Öndərimizin yaratdığı, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin inkişafına mühüm töhfələr verən Yeni Azərbaycan Partiyasının üzvü olmaqdan qürur duyuram”.

Sonra partiya sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

Tədbir Yeni Azərbaycan Partiyası Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonda xatirə şəkli çəkdirilib.













# XİN bəyanat yaydı

Məlumdur ki, mövcud beynəlxalq təhlükəsizlik mühitində daha da artan gərginlik, müxtəlif regionlarda, o cümlədən Ukraynada və Yaxın Şərqdə davam edən silahlı münaqişələr beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhdid olaraq qalmaqdadır.

Mövzu ilə əlaqədar Azərbaycanın Xarici İşlər Nazirliyi bəyanat yayıb.

Bəyanatda bildirilib: "Təəssüf ki, belə ərazilərdə olan Azərbaycan vətəndaşlarının silahlı toqquşmalar və hərbi əməliyyatlar nəticəsində həlak olması və ya müxtəlif dərəcəli bədən xəsarətləri alması halları qeydə alınır. Bu cür hadisələr münaqişə zonalarında və onların yaxınlığında yerləşən ərazilərdə təhlükəsizlik risklərinin son dərəcə yüksək olduğunu bir daha nümayiş etdirir və həmin bölgələrə səfər edən və ya fəaliyyət göstərən vətəndaşlarımızın həyat və sağlamlığı üçün ciddi təhlükələr yaradır.

Bu kontekstdə vətəndaşlarımıza xarici ölkələrə səfər etməzdən əvvəl təhlükəsizlik vəziyyətini diqqətlə qiymətləndirmələrinə, rəsmi dövlət qurumlarının xəbərdarlıq və tövsiyələrini nəzərə almalarına, münaqişə və hərbi əməliyyatların aparıldığı ərazilərə səfərlərdən yayınmalarına bir daha çağırış edirik.

Bununla yanaşı, vətəndaşların muzdlu və ya könüllü əsasda xarici dövlətlərin ərazisində silahlı münaqişələrdə və hərbi əməliyyatlarda hər hansı bir formada iştirakının Azərbaycan qanunvericiliyinə uyğun olaraq cinayət məsuliyyəti ehtiva etdiyini bir daha diqqətə çatdırırıq".

Qeyd olunub ki, Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları xaricdə olan vətəndaşlarımızın hüquq və maraqlarının müdafiəsi istiqamətində fəaliyyətlərini davam etdirir. Bununla yanaşı, hər bir vətəndaşın öz təhlükəsizliyinə məsuliyyətlə yanaşması və yüksəkriskli fəaliyyətlərdən uzaq durması xüsusi əhəmiyyət kəsb edir.

"Xarici İşlər Nazirliyi beynəlxalq vəziyyətlə bağlı inkişafları diqqətlə izləməyə davam edir", - deyə bəyanatda vurğulanır.

# Ötən ilin dövlət büdcəsinin icrası müzakirə olunub

## Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib

İyunun 9-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. İclasda "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi müzakirəyə çıxarılıb.

Komitənin sədri Azər Əmiraslanov çıxış edərək ötən ilin dövlət büdcəsinin icrası ilə bağlı fikirlərini bildirib.



Sonra çıxış edən maliyyə naziri Sahil Babayev sənəd barədə ətraflı məlumat verib. O bildirib ki, 2025-ci il Azərbaycan üçün uğurlu il olub. Ümumi daxili məhsulumuz 129,1 milyard manata çatıb və bu 2024-cü illə müqayisədə nominal olaraq, 2 faizlik artım deməkdir. Onun sözlərinə görə, 2025-ci il üzrə büdcə siyasətində iqtisadi artımın davam etməsi, makroiqtisadi sabitliyin, fiskal intizamın qorunması, büdcə qaydasına əməl edilməsi ilə yanaşı, əhalinin rifahı və sosial tədbirlərin tam maliyyələşdirilməsi, müdafiə qabiliyyətinin və təhlükəsizliyinin təminatının gücləndirilməsi, eləcə də Qarabağ, Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı, rəqəmsal texnologiyaların, innovativ tətbiqlərin genişləndirilməsi, real sektorun inkişafının sürətləndirilməsi də prioritetdir.

"2025-ci ildə qeyri-neft sektorumuz daha da genişlənib. Qeyri-neft sektorunda ümumi daxili məhsulumuz 92,3 milyard manata çatıb. 2024-cü illə müqayisədə bu, 2,7 faizlik real artımdır. Xam neftin ötən il ortaillik qiyməti 71 dollara bərabər olub. Ortaillik inflyasiyamız 5,6 faiz, manatın məzənnəsi isə stabil olaraq 1,7 manat - 1 ABŞ dolları məzənnəsi ilə təsbit olunub",-deyən nazir əlavə edib ki, əhalinin nominal gəlirləri 8 faizlik artım göstərib. Bu da həm inflyasiyadan yüksək olmaqla əhalinin rifahının daha da yaxşılaşdırılması istiqamətində atılan növbəti addım kimi qiymətləndirilə bilər.

S.Babayevin sözlərinə görə, 2025-ci ildə dövlət borcu ilin sonuna 26 milyard manat və ya illik ÜDM-in 20,1 faizinə bərabər olub. Bu da 2025-ci ilin əvvəli ilə müqayisədə ilin sonuna 1,6 faiz bəndi az deməkdir: "Dövlət borcunun bu günə olan rəqəmi isə, ümumiyyətlə, 24,1 milyard manata və ya proqnozlaşdırılan illik ÜDM-in 18,4 faizinə bərabərdir. Bu da Azərbaycanın dünyada dövlət borcunun səviyyəsinin ÜDM-ə nisbətən ən aşağı ölkələrdən biri olmasının daha bariz bir göstəricisidir".

Qeyd edilib ki, strateji valyuta ehtiyatlarımız bu günə artıq 88,4 milyard dollara çatıb. Bu da xarici dövlət borcunu 19,2 dəfə, ümumi daxili məhsulu isə təqribən 15 faiz üstələyir. Nazir bildirib ki, Dövlət Neft Fondundan büdcəyə transfer ötən il proqnoz səviyyəsində 8,5 milyard dollar məbləğində icra olunub. Artıq 2026-cı il büdcəsinin təqdimatı zamanı, 2026-cı və növbəti üç il üzrə proqnozlarda bu rəqəmlərin azaldılaraq 6 milyard dollara qədər çatdırılması planlaşdırılır. Büdcə profitsitlə icra edilib. "Büdcənin icrasında əsas məqamlara baxdıqda, cari xərclərin qeyri-neft gəlirləri ilə örtülmə nisbəti 92 faizə çatıb. Bu, proqnozdan 7,5 faiz bənd daha çoxdur və 2029-cu ilə hədəfimiz bu rəqəmi 100 faizə çatdırmaqdır. Çünki cari xərclər qorunan xərclərdir və qeyri-neft gəlirləri ilə biz bütün cari xərclərimizin örtülməsini tam şəkildə təmin etdiyimiz zaman, əlbəttə ki, dayanıqlığımızı daha da gücləndirəcəyik", - deyə nazir vurğulayıb.

Diqqətə çatdırılıb ki, keçən il 15,3 milyard manat və ya büdcənin 40 faizi demək olar ki, sosialyönümlü xərclərə yönəldilib. 2024-cü illə müqayisə etsək, bu rəqəm 602 milyon manat daha çoxdur. Ümumiyyətlə, son 5 ildə sosialyönümlü xərclər 3,9 milyard manat və ya 34,1 faiz artıb. "Müdafiə və milli təhlükəsizlik xərcləri xüsusi olaraq ən geniş icra olunan istiqamətlərimizdən biridir. Bu istiqamətə 2025-ci ildə 8,1 milyard manat və ya dövlət büdcəsi xərclərinin təqribən 21 faizi yönəldilib. 2024-cü illə müqayisədə ötən il bu istiqamətə 1,5 milyard manat daha çox vəsait yönəldilib", - deyə S.Babayev qeyd edib.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov isə çıxışında bildirib ki, Palata "Büdcə sistemi haqqında" Qanunun 20.6-cı maddəsinə əsasən qanun layihəsinə daxil edilmiş göstəricilərin maddələr üzrə təhlilini aparıb, bu göstəricilərin tamlığının və düzgünlüyünün qiymətləndirilməsinə çalışıb. Onun sözlərinə görə, aparılmış təhlillər qanun layihəsində əks etdirilmiş dövlət büdcə gəlirlərinin və xərclərinin əsasən düzgün olduğunu deməyə əsas verib: "Dövlət büdcə gəlirlərinin icrasını təmin edən qurumların təqdim etdiyi hesabatlar əsasında 2025-ci ildə 37,7 milyard manat təhlillə əhatə olunub. Bu da dövlət büdcəsinin ümumi gəlirlərinin 96,2 faizinə bərabərdir. Hesabatlardakı müvafiq icra göstəricilərinin dövlət büdcəsinin icrasına dair illik hesabatında əks etdirilmiş göstəricilərə uyğunluq təşkil etdiyi müəyyən edilib. Analitik prosedurların nəticələrinə əsasən, 2025-ci ilin dövlət büdcəsinin icrası prosesində ikili uçot halına rast gəlinməyib".

Müzakirələr zamanı deputatlar qanun layihəsi barədə fikirlərini bildiriblər. Sonda layihə parlamentin plenar iclasına tövsiyə edilib.

*Nardar BAYRAMLI*

# Süni intellekt əsaslı startaplar

## "Solurius" startapı ilk yerli platforma kimi kibertəhlükəsizlik ekosisteminin inkişafına töhfə verməkdədir

Azərbaycanda rəqəmsal iqtisadiyyatın müasir atributlarından biri olan startap ekosistemi biznes ideyalarının mükəmməl aləti kimi öz imkanlarını artırmaqdadır. Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin yeni rəqəmsal texnologiyaların tətbiqində verdiyi dəstək, o cümlədən startap platformasına motivasiyaları da yeni biznes nəslinin formalaşmasında mühüm rol oynayır. Startap ailəsi yaxın xarici tərəfdaşları ilə süni intellekt və maşınların öyrənilməsi, əşyaların interneti və şəhər transformasiyası, rəqəmsal ticarət və iqtisadiyyat platformaları ilə sıx əməkdaşlıq edərək iqtisadiyyatın rəqəmsallaşmasına da töhfə verirlər.

Bu günlərdə Bakıda keçirilən IV Milli Kibertəhlükəsizlik Forumunda Azərbaycanın ilk yerli startapın kibermaarifləndirmə və fişinq simulyasiya platforması olan "Solurius" təqdim edilib. Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) üzvü, "CYBERSIGN" MMC-nin direktoru Elvin Axundov bildirib ki, "Solurius" fişinq hücumlarına qarşı hazırlıq səviyyəsinin ölçülməsi və insan faktorundan yaranan risklərin idarə olunması istiqamətində mühüm yer tutur. Bu platforma müasir rəqəmsal texnologiya həllərini təmin etməklə kibertəhlükəsizlik ekosisteminin inkişafına, bilik və təcrübə mübadiləsinin genişlənməsinə, eləcə də təşkilatlarda təhlükəsizlik mədəniyyətinin daha da güclənməsinə mühüm töhfə verir. Ümumilikdə, yerli startap texnologiyaları ölkəmizin rəqəmsal təhlükəsizliyinin təmin olunmasında və kibermüdafiə sistemlərində öz mühüm rolunu artırmaqdadır.

Mövcud vəziyyət onu təsdiqləyir ki, Azərbaycan startapları da öz çeviklikləri, innovativ texnologiyalar (süni intellekt, blokçeyn) tətbiq etmələri ilə kibertəhlükəsizlik sektorunu köklü şəkildə dəyişməyə qadirdir. Milli texnologiya şirkətləri ənənəvi təhlükəsizlik metodlarını yeniləyərək təhdidlərin qarşısını daha erkən almağa imkan yaradır, şübhəli fəaliyyətləri dərhal müəyyən edərək qabaqcadan təhlükələri proqnozlaşdıran sistemlər hazırlayır. Ağıllı cihazların artan zəifliklərinə qarşı yüngül və effektiv qorunma üsulları təqdim edən startaplar bu ekosistemin inkişafına dəstək məqsədilə dövlət və özəl sektor platformasında birləşir.

**Azərbaycanlı startapçılar qlobal investorlar arasında**

Azərbaycanlı startapçılar biznes ideyaları, kəşf və bacarıqları ilə artıq qlobal bazarlarda uğurlu investorlar kimi qəbul edilir. Bu motivasiyalar sayəsində son illərdə Azərbaycanın İT və rəqəmsal sektorlarında stratap, süni intellekt və biznes ideyləri dünya ölkələrinin strataplari ilə rəqabət aparmağa çalışır. Onların KOBİA, Xəzər-Vençur, Elmin İnkişafı Fondu, Prezident yanında Gənclər Fondu, Sahibkarlar Təşkilatları Milli Konfederasiyasında təmsil olunan bacarıqlı gənc ideya müəllifləri kifayət qədər uğur qanmağa nail olub.

Dünya ölkələrinin innovasiya ekosisteminin təhlilini aparan "StartupGenome" şirkətinin bir müddət əvvəl açıqladığı 2025-ci il üzrə hesabatda Azərbaycan "Asiya ekosistemində istedadların əlçatanlığı" reytinqində ilk iyirmi beş ölkə arasında yer alır. "Startup Genome" hesabatında göstərilir ki, Azərbaycandakı ekosistem dövlətin rəqəmsal transformasiya yanaşması, kibertəhlükəsizlik və insan kapitalının inkişaf təşəbbüsləri ilə hərtərəfli dəstəklənir.

Bu günlərdə ABŞ-da keçirilən "Silicon Valley May Summit 2026" tədbirində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) ilə "Plug and Play" innovasiya şirkətinin tərəfdaşlığı əsasında həyata keçirilən "GOAL" proqramının qalibi olan Azərbaycan startapları da çıxış edib. Beş Azərbaycan startapı - "Glacies Biome", "Bonfi", "Recepta", "Pixelfork" və "Pionero AI" biotex, sağlamlıq və süni intellekt sahələrində öz həllərini beynəlxalq auditoriyaya təqdim edib. Bu təqdimat Azərbaycan startaplarının qlobal platformalarda tanınmasını təmin etməklə yanaşı, onların Silikon Vadisi ekosisteminə inteqrasiyası, eləcə də beynəlxalq investisiya və korporativ tərəfdaşlıq üçün imkanlar yaradıb.




**Startaplar uğurlu biznes platforması kimi**

Uğurlu biznes və innovasiya layihəsi kimi startaplar kiçik və orta biznesin (KOB) marağında ön plana çıxır və sahibkar tərəfindən əldə edilən "Startap" şəhadətnamələrinin sayı artır. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) Ekspertlər Şurası tərəfindən 2026-cı ilin ilk 5 ayında 20-dən çox KOB subyektinə "Startap" şəhadətnaməsi verilib. Şəhadətnamə qazanan layihələr müxtəlif sahələri əhatə edir. Onların arasında avtoservis xidmətləri üçün marketplace platforması, taksilərdə interaktiv reklam həlli, süni intellekt modelləri, parkinq və nəzarət sistemləri üçün proqram təminatı, incəsənət və media sahəsində süni intellekt əsaslı platformalar, həmçinin kadr seçimi və daşınmaz əmlak alqı-satqısı üzrə innovativ texnoloji həllər yer alır. Bu müxtəliflik ölkədə innovasiyanın yalnız bir sahə ilə məhdudlaşmadığını, fərqli sektorlara yayıldığını göstərir.

Ümumilikdə, ölkəmizdə "Startap" şəhadətnaməsi alan biznes subyektlərinin sayı 270-i ötüb. Həmin sahibkarların əhəmiyyətli bir qismi regionlarda fəaliyyət göstərən KOB təmsilçiləridir. Xüsusilə vurğulamaq lazımdır ki, son bir ildə seçilən layihələrin əksəriyyəti süni intellekt texnologiyalarına əsaslanır. Bu tendensiya innovasiya ekosistemində süni intellekt təşəbbüslərinin ön plana çıxdığını aydın şəkildə nümayiş etdirir. Digər tərəfdən, mikro və kiçik sahibkarlara göstərilən vergi dəstəyi rəqəmsal iqtisadiyyatın genişlənməsi üçün münbit şərait yaradır.

**Güzəşt və motivasiyalar yerli və xarici investorların marağını artırır**

"Startap" şəhadətnaməsi KOB subyektlərini şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və ya gəlir vergisindən 3 il müddətinə azad edilib. Vergi Məcəlləsinin 102.1.31.-ci maddəsinə əsasən, "Startap" şəhadətnaməsi olan fiziki şəxs şəhadətnaməni aldığı tarixdən 3 il müddətinə və həmin startap şəhadətnaməsi üzrə innovasiya fəaliyyətindən əldə etdikləri gəlirləri vergidən azaddır. Həmçinin, startaplar üzrə texnoloji avadanlıqlar və maddi-texniki güzəştlər və təşviqlər də bu sahədə motivasiyaedici mühit yaradıb.

Startapların nüfuz etdiyi yüksək texnologiyalar parklarında da xüsusi aktivlik nəzərə çarpmaqdadır. Texnopark rezidentlərinin sayının 96-ya yüksəlməsinə səbəb olub. Qeyd edək ki, Vergi Məcəlləsində edilmiş dəyişikliklərə və 2023-cü il yanvarın 1-dən qüvvəyə minən yeni qaydalara əsasən, texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslər qeydiyyata alındıqları hesabat ilindən başlayaraq 10 il müddətinə mənfəət, gəlir əmlak vergiləri, dividendlər, texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına münasibətdə ƏDV-dən azad edilib. Vergi güzəştləri onların həm texnopark, həm də texnoparkdan kənar fəaliyyətinə şamil edilir.

Nəticədə bu güzəşt və motivasiyalar yüksək texnologiyalar və innovasiyalar sektorunda çalışan gənc biznes icmasının sistem inteqrasiyası, proqram təminatı, süni intelket məhsulları üzrə inkişafında əlverişli münbit mühit yaradır. Eyni zamanda, "Startap" şəhadətnaməsi layihəyə yerli və xarici investorların marağını artırır, xarici bazarlara çıxışını asanlaşdırır.

*E.CƏFƏRLİ*

# Tehrana qarşı yeni sanksiya

## Avropa İttifaqı iki şəxsi və bir qurumu sərhədlərindən içəri buraxmayacaq

Avropa İttifaqı (Aİ) Yaxın Şərqdə dəniz nəqliyyatının təhdid altında qalması ilə əlaqədar İrana qarşı yeni sanksiya tətbiq edib. Təşkilatın veb saytında dərc olunmuş açıqlamaya görə, sanksiya Avropa İttifaqı Şurası tərəfindən İrandan olan iki şəxsə və bir quruma şamil olunub. Sanksiyalar İranın Hörmüz boğazında və Yaxın Şərqin digər ərazilərində gəmilərin sərbəst keçidinə mane olan hərəkətlərindən irəli gəlir. Şura bu hərəkətlərin beynəlxalq hüquqa zidd olduğunu və gəmilərin beynəlxalq boğazlardan tranzit və günahsız keçid hüququnu pozduğunu bildirib. Sanksiyalar İslam İnqilabı Keşikçiləri Korpusunun (İİKK) Hərbi Dəniz Qüvvələrinin bir hissəsi olan Hörmüzqan Vilayət Komandanlığını hədəf alır. Avropa İttifaqına görə, İİKK Hərbi Dəniz Qüvvələri Hörmüz boğazına nəzarəti ələ keçirib və ödəniş sistemi tətbiq edib. Gəmilərdən sənədlər, yük və marşrut məlumatları təqdim etmələri tələb olunur.

Sanksiya siyahısına İİKK Hərbi Dəniz Qüvvələrinin siyasi işlər üzrə müavini Məhəmməd Əkbərzadə də daxildir. Aİ-nin məlumatına görə, o, boğazdakı gəmilərə qarşı raket və dronlardan istifadə etməklə hədələyir. Adı çəkilən ikinci şəxs İran Neft, Qaz və Neft-Kimya İxracatçıları Birliyinin nümayəndəsi Həmid Hüseynidir. İddialara görə, o, gəmilərin təhlükəsiz keçid üçün İran hakimiyyətinə pul ödəməli olduğu bir sxemi təbliğ edir.

Aİ hazırda bu rejim çərçivəsində 26 fiziki və hüquqi şəxsə, eləcə də müxtəlif ölkələrdən olan 27 təşkilata sanksiya tətbiq edir. Onların Avropa İttifaqı sərhədlərinə daxil olması qadağandır, aktivləri dondurulur və onlara vəsait və ya resursların verilməsi qadağan edilib. Bu qərar BMT Təhlükəsizlik Şurasının qətnaməsinə uyğun olaraq və Aİ-nin 22 may 2026-cı ildə təsdiqlədiyi genişləndirilmiş sanksiyaların bir hissəsi olaraq qəbul edilib.




Xatırladaq ki, Avropa İttifaqı müdafiə nazirlərinin qeyri-rəsmi görüşü ərəfəsində Avropa İttifqanın diplomatiya rəhbəri Kaya Kallas bildirmişdi ki, Aİ ilk dəfə İrana naviqasiya azadlığını pozduğuna görə sanksiyalar tətbiq edəcək. "Düşünürəm ki, regionun eskalasiyaya ehtiyacı yoxdur; tərəflərin danışıqlar masasına oturub razılığa gəlməsi lazımdır. Əlbəttə ki, biz Aspides Əməliyyatını (Avropa İttifaqının Qırmızı dəniz, Ədən körfəzi və ətraf ərazilərdə beynəlxalq ticarət gəmilərini Yəməndəki husi qüvvələrinin hücumlarından qorumaq üçün həyata keçirdiyi müdafiə xarakterli hərbi-dəniz missiyası) və onun çərçivəsində başqa nə edə biləcəyimizi müzakirə edəcəyik", -deyə o bildirmişdi.

**Aİ-nin siyahısı genişlənir**

Qeyd edək ki, artıq illərdir Avropa İttifaqının (Aİ) İrana qarşı tətbiq etdiyi sanksiyalar bir neçə sahəni əhatə edir. Burada insan hüquqları pozuntuları ilə bağlı sanksiyalar var ki, bu, 2011-ci ildən etibarən həyata keçirilir. Sanksiya formasına aktivlərin dondurulması, Aİ ölkələrinə giriş qadağası və repressiya üçün istifadə oluna biləcək avadanlıqların İrana ixracına məhdudiyyətlər daxildir. 2025-ci ildə Aİ daha 7 nəfər və 2 qurumu bu səbəblə sanksiya siyahısına əlavə edib. Bundan başqa, nüvə proqramı ilə bağlı sanksiyalar da siyahıya daxildir. Aİ uzun müddətdir İranın nüvə proqramı ilə əlaqədar məhdudiyyətlər tətbiq edib. 2025-ci ilin sentyabrında BMT sanksiyalarının yenidən qüvvəyə minməsindən sonra Aİ də nüvə fəaliyyətləri ilə bağlı bir sıra sanksiyaları bərpa edib. Bunlara da aktivlərin dondurulması, səyahət qadağaları və maliyyə məhdudiyyətləri daxildir. Digər bir sanksiya isə hərbi və təhlükəsizlik məsələlərinə aiddir. Aİ İranın bəzi hərbi qurumlarına, xüsusilə SEPAH ilə əlaqəli şəxslərə qarşı məhdudiyyətlər tətbiq edib. Daha bir sanksiya istiqaməti isə kiberhücumlar və transmilli fəaliyyətlərlə bağlıdır. Aİ İranla əlaqəli bəzi şəxsləri və qurumları Avropadakı kiberhücumlar və xaricdəki dissidentlərə qarşı fəaliyyətlərə görə sanksiya siyahısına daxil edib. Vurğulandığı kimi, sanksiyaların əsas formaları aktivlərin dondurulması, vizaların verilməsi və Aİ-yə girişin qadağan edilməsi, maliyyə əməliyyatlarına məhdudiyyətlər ilə müşaiyət olunur.

**ABŞ-ın sanksiyaları...**

Yeri gəlmişkən, Aİ ilə yanaşı ABŞ da İrana qarşı sanksiyalarını gücləndirir. Ötən ay ABŞ Maliyyə Nazirliyi İrana qarşı sanksiyaları genişləndirərək 16 qurumu, səkkiz neft tankerini və bir Hindistan vətəndaşını qara siyahıya salıb. Vaşinqtonun məlumatına görə, bunların hamısı Tehranın neft təchizatı ilə bağlıdır. ABŞ Xarici Aktivlərə Nəzarət İdarəsi (OFAC) izah edib ki, yeni tədbirlər qanunsuz ticarətlə mübarizə aparmaq məqsədi daşıyır və bu ticarətdən əldə edilən gəlir İranın hərbi sektorunun maliyyələşdirilməsinə sərf olunur. Məhdudiyyətlər BƏƏ, Qətər, Hindistan, Çin, Honkonq və Marşal Adalarında qeydiyyatdan keçmiş şirkətlərə təsir göstərir.

Bundan əlavə, strateji əhəmiyyətli Hörmüz boğazında gəmiçiliyi izləmək və nəzarət etmək üçün Tehran tərəfindən yaradılan Fars Körfəzi İşləri İdarəsinə (PGSA) sanksiya tətbiq edilib. Sanksiyalar siyahısına Panama, Kamerun, Palau, San Marino, Komor adaları və Marşal Adaları bayraqları altında üzən səkkiz tanker də əlavə edilib.

Qeyd edək ki, ABŞ-ın İrana qarşı sanksiya siyasəti rəsmii Vaşinqton və ya Birləşmiş Millətlər Təşkilatı vasitəsilə beynəlxalq ictimaiyyətin də iştirakı ilə tətbiq edilən iqtisadi, ticarət, elmi, insan hüquqları və hərbi sanksiyaları əhatə edir. Bu sanksiyalar Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası vasitəsilə beynəlxalq ictimaiyyət tərəfindən tətbiq edilir.

**Tramp 2 həftə deyir...**

Bu arada ABŞ prezidenti Donald Tramp İranla razılaşmanın iki həftə ərzində əldə ediləcəyini söyləyib. Xarici mətbuatın məlumatına görə, Tramp bildirib ki, "düşünürəm ki, bu döyüşdə qalib gəlirik, amma tam qələbə elan etdiyimiz zaman növbəti iki həftə ərzində həqiqətən qalib gələcəyik. Bu, tam qələbə olacaq və çox tezliklə gələcək, neft qiymətləri də aşağı düşəcək".

O, həmçinin qeyd edib ki, hazırda iki tərəf danışıqlar aparır və Tehran nüvə silahlarından imtina etməyə və ABŞ-a hər şeyi verməyə" hazırdır.

***SADİQ***

# Adalar ölkəsi çətin seçim qarşısında...

Ağ Evdə administrasiya dəyişikliyindən sonra Prezident Donald Tramp Amerika Birləşmiş Ştatları (ABŞ) ilə dost sayılmayan ölkələr arasında münasibətləri yenidən tənzimləməyə başlayıb. Xüsusilə də "qara siyahı"ya daxil edilən ölkələrin rejimləri hədəfə alınıb. Bu sırada həmçinin şimali Karib dənizi, Meksika körfəzi və Atlantik okeanının kəsişdiyi coğrafiyada yerləşən Kubanın da adı var.

## Venesuela və İrandan sonra Kuba...

ABŞ-ın yeni administrasiyası üçün adalar ölkəsi ( 4.195 adadan ibarət dövlət) Kuba məsələsi yeni deyil. D.Tramp ikinci prezidentlik dönəminə başladıqdan sonra Kuba ilə bağlı problemləri dəfələrlə dilə gətirib. D.Tramp 2026-cı il yanvarın sonunda Kubanın ABŞ-in milli təhlükəsizliyinə təhdidi ilə bağlı fövqəladə vəziyyət elan edib. Həmçinin Vaşinqton Kubaya münasibətdə də sanksiya siyasətindən istifadə edir. Son olaraq Tramp mayın 1-də Kuba ilə bağlı əlavə məhdudiyyətləri nəzərdə tutan sənəd imzalayıb. Yeni qərara əsasən, ABŞ dövlət katibi və maliyyə naziri Kubanın iqtisadiyyatının bəzi sahələri ilə əlaqəsi olan həm Amerika vətəndaşlarına, həm də xarici şəxslərə



qarşı əlavə sanksiyalar tətbiq edə biləcəklər. Sənəddə enerji, müdafiə sənayesi, faydalı qazıntıların hasilatı, metallurgiya və maliyyə xidmətləri sahələri xüsusi qeyd olunub.

D.Tramp bəhs olunan mövzuya növbəti dəfə bu günlərdə Ağ Evdə jurnalistlərin suallarını cavablandırarkən qayıdıb. Belə ki, Prezident Tramp Vaşinqtonun İranla münaqişənin nizamlanması başa çatdıqdan sonra Kubada mövcud dövlət quruluşunu dəyişdirmək niyyətində olduğunu açıq şəkildə bəyan edib. "Kuba ilə bağlı çox yaxşı planlarımız var. Düşünürəm ki, çox sərt, xoşagəlməz bir rejimdən qurtulmalı olacağıq", - deyə Tramp vurğulayıb.

Xatırladaq ki, bundan əvvəl oxşar ssenari Venesuelada reallaşdırılıb. Belə ki, 3 yanvar 2026-cı il tarixində ABŞ qüvvələrinin Venesuelada keçirdiyi əməliyyat nəticəsində prezident Maduro və həyat yoldaşı saxlanılaraq ABŞ-a aparılıb. O, narkokartel idarə etmək, narkotik qaçaqmalçılığı və digər cinayətlərdə ittiham olunur, Maduronun özü isə bütün ittihamları rədd edir. Hazırda Maduro Nyu-Yorkun Bruklin rayonundakı istintaq təcridxanasında saxlanılır. Maduronun həbsindən sonra dövlət başçısının vəzifələrini əvvəllər vitse-prezident postunu tutan Delsi Rodriges icra etməyə başladı. O, faydalı qazıntılar haqqında qanunları dəyişdirərək Venesuelanın neft sektorunu xarici investisiyalara açdı. ABŞ Prezidenti martın 7-də Floridada Latın Amerikası ölkələrinin liderləri ilə sammitdə bəyan etdi ki, Venesuela hökumətini rəsmi olaraq tanıdığından məmnundur. Həmin gün iki ölkə arasında saziş də imzalanıb: "Bu saziş ölkələrimizə Venesuela qızılının və başqa faydalı qazıntıların satışına kömək etmək məqsədilə əməkdaşlığa imkan verir. Onların böyük qızıl ehtiyatları var. Onların yaxşı torpaqları var", - deyə ABŞ-ın dövlət baçısı vurğulayıb.

ABŞ administrasiyası hesab edir ki, Venesuela əməliyyatı ilə qanunsuz halların və cinayətlərin qarşısını alıb. Bununla da Venesuela ABŞ-in nüfuz dairəsinə keçdi. Başqa sözlə, bu Latın Amerikası ölkəsi Çin-Rusiya düşərgəsindən Qərb tərəfə yerdəyişmə etmiş oldu.

Əslində, güman edilirdi ki, Venesueladan sonra Trampın nəzərləri Kubaya yönələcək. Ancaq belə olmadı. Hər zaman qeyri-adi gedişlər edən D.Tramp Kubadan əvvəl Yaxın Şərq gündəliyini önə çəkdi. Beləliklə də, fevralın 28-də ABŞ-İsrail-İran müharibəsi başladı. Ağ Ev İran əməliyyatını qısamüddətli müharibə kimi nəzərdə tutsa da, bu, alınmadı. Belə ki, İran havadan endirilən intensiv zərbələr nəticəsində ali dini rəhbərin və digər qərarverici şəxslərin öldürülməsi də daxil olmaqla böyük itkilərə məruz qalsa da, təslim olmadı, müqaviməti gündən-günə artırdı, o cümlədən İsrailə uzaqmənzilli dağıdıcı raketlər atdı, ABŞ-ın qonşu ölkələrdəki bazalarını vurdu. Eyni zamanda, Tehranın Hörmüz boğazı ətrafında yaratdığı vəziyyət qlobal iqtisadiyyata ciddi təsir göstərir. Beləliklə də, müharibə uzandı və gərgin vəziyyət hələ də davam etməkdədir. İranla uzanan gərginlik fonunda Ağ Ev Kuba ilə ikinci cəbhə açmağa tələsmir və bu ölkəyə təzyiqlərini sanksiyalarla davam etdirir.

## Kubada son onilliklərin ən ağır dövrü

Birbaşa açıq əməliyyatların gecikməsi heç də adalar ölkəsinin xoşbəxtliyi anlamına gəlmir. D.Trampın bəyanatları və getdikcə sərtləşdirilən sanksiyalar enerji resursları məhdud olan Kuba üçün təsirsiz ötüşmür. Ölkədə il in əvvəlindən vəziyyət əhəmiyyətli dərəcədə pisləşib. ABŞ embarqonu sərtləşdirib, neft isə demək olar ki, ölkəyə daxil olmur. Bu səbəbdən də ictimai həyat kəskin şəkildə məhdudlaşdırılıb, enerji təchizatı isə qənaət rejiminə keçirilib. Avtobuslar, bərələr və qatarlar fasilələrlə işləyir. "Tagesschau" portalının yazdığına görə, məktəblər və universitetlər dərslərin müddətini azaldır və ya məcbur olaraq davamiyyəti tamamilə ləğv edir. Dövlət qulluqçularından da səfərlərinin sayının azaldılması gözlənilir və onlar həftədə dörd gün işləyirlər.

Dövlət televiziyasının efirində çıxış edən baş nazirin müavini Oskar Peres-Oliva bildirib ki, yanacaq ilk növbədə səhiyyə, elektrik enerjisinin istehsalı və ərzaq təminatı üçün istifadə olunacaq. "Bu, ilk növbədə su təchizatını da əhatə edir, həyati əhəmiyyətli xidmətlərin göstərilməsi davam edəcək", - deyə Peres-Oliva qeyd edib.

Hökumət rəsmisinin sözlərinə görə, enerji və ərzaq böhranı ilə əlaqədar ciddi məhdudiyyətlər tətbiq olunur. Bu, qismən ABŞ embarqosu səbəbindən baş verir, eyni zamanda daxildəki çatışmazlıqlarla da bağlıdır.

Əvvəllər Kubanın enerji məhsullarının tədarükü əsasən Venesuela vasitəsilə həyata keçirilirdi. İndi bəlli səbəblərdən bu təchizat kanalı bağlanıb. Evlərdə qaz plitələri və qızdırıcılar fəaliyyətsizdir. Qaz çatışmazlığı səbəbindən Havananın bir çox sakinləri yenidən odun kömüründə yemək bişirməyə məcbur qalıblar.

Meksika da ənənəvi olaraq Kubaya neft ixrac edən ölkədir, lakin Donald Tramp blokadanı pozan ölkələrə qarşı əlavə rüsumlar tətbiq edəcəyi ilə hədələyib. Hətta Meksikanın sol-mərkəzçi prezidenti Klaudiya Şeynbaum da ehtiyatlı mövqe nümayiş etdirir.

Humanitar yardım neft qədər vacibdir, belə ki, kubalılar kəskin çatışmazlıqdan, o cümlədən ərzaq və dərman qıtlığından əziyyət çəkirlər. Bunun nəticəsi olaraq aclıq və xəstəliklər artır. Milli valyuta - Kuba pesosu faktiki olaraq dəyərini itirib. Vəziyyətin daha da ağırlaşacağı gözlənilir.

Yanacaq ehtiyatlarının tamamilə sıfırlanması ölkə daxilində işıqların uzunmüddətli sönməsinə gətirib çıxarıb. Bu kritik vəziyyət barədə ölkənin energetika və dağ-mədən sənayesi naziri Visente de la O Levi danışıb. Nazir etiraf edib ki, hazırda ölkədə nə mazut, nə də dizel yanacağı qalıb. Onun sözlərinə görə, dövlət hazırda yalnız yerli imkanlar hesabına - öz yataqlarından əldə edilən səmt qazı və daxili hasilat sayəsində ayaqda durmağa çalışır.

Ölkəyə yanacaq idxalı ötən ilin dekabrından dayanıb. Yalnız aprel ayında Rusiyadan yardım məqsədilə göndərilən 100 min tonluq neft partiyası vəziyyəti bir qədər yumşaltmağa kömək etsə də, bu ehtiyatlar da mayın əvvəlinə qədər artıq istifadə edilərək bitib.

Yaranmış mürəkkəb durumdan çıxış yolu kimi rəsmi Havana alternativ enerji mənbələrinə yönəlməyi planlaşdırır. Energetika naziri qeyd edib ki, hökumət artıq günəş enerjisindən istifadəni genişləndirmək, enerjini saxlamaq üçün yeni sistemlər qurmaq və yerli neft-qaz sənayesini inkişaf etdirmək strategiyasına üstünlük verir.

## Ağır iqtisadi böhran fonunda ABŞ ilə başlayan danışıqlar

Yaranmış vəziyyətdə Kuba rəhbərliyinin seçim imkanları məhduddur. İraq, Liviya, Misir, Suriya, İran, Yəmən, Qəzza zolağı, Tunisdə son bir neçə ildə baş verən dəyişikliklər fonunda Kuba Prezidenti Miqel Dias-Kanel çıxış yolu barədə ciddi düşünməlidir. Perspektivlər belə ola bilər: Venesuelanın keçmiş prezidenti Nikolas Maduro kimi yataq otağında tutularaq Vaşinqtona aparılmaq; Meksikanın dövlət başçısı Klaudiya Şeynbaum kimi Ağ Evlə əməkdaşlıq etmək; İranın keçmiş ali rəhbəri Xamenei, İraqın keçmiş prezidenti Səddam Hüseyn və başqaları kimi müqavimət göstərmək, ölkəni dağıtmaq və sonda həyata "Əlvida" demək.

Onu da nəzərdən qaçırmaq olmaz ki, Kuba sadalanan ölkələrin hamısından bütün parametrlər baxımından zəifdir. Trampdan ard-arda gələn hədələr onu deməyə əsas verir ki, prezident Miqel Dias-Kanel üçün, bir növ, gerisayım başlayıb. "Kuba ağır iqtisadi böhran və Prezident Donald Trampın artan təzyiqi səbəbindən ABŞ hökuməti ilə danışıqlar aparır". "Reuters"in məlumatına əsasən, bu barədə Kuba Prezident Migel Dias-Kanel məlumat verib. "Kuba rəsmiləri bu yaxınlarda ABŞ hökumətinin nümayəndələri ilə danışıqlar aparıblar. Müzakirələr ölkələr arasında mövcud olan ikitərəfli fikir ayrılıqlarının həlli yollarını tapmaq məqsədi daşıyırdı. Danışıqlar hər iki dövlətin siyasi sistemlərinə hörmət, eləcə də hökumətlərin suverenliyi və öz müqəddəratını təyinetmə prinsipləri əsasında baş tutdu", - deyə Kuba lideri bildirib.

***Mübariz FEYİZLİ***

# Yelisey Sarayına gedən yolda...

Fransada 2027-ci ilin aprel ayında keçirilməsi nəzərdə tutulan prezident seçkilərinə hələ xeyli müddət qalsa da, artıq iqtidar komandası da daxil olmaqla iddialı siyasi qüvvələr fəallaşıblar. Əslində, hazırkı prezident E.Makronun rəhbərlik etdiyi mərkəzçi-liberal blokdan, son vaxtlarda nüfuzu əhəmiyyətli dərəcədə artan ifrat sağçı və ifrat solçu düşərgələrdən gələn siqnallar onu deməyə əsas verir ki, reallıqda ölkədə seçki hazırlıqlarına start verilib və potensial namizədlər Yelisey Sarayına gedən yola çıxıblar.

Onlar üçün marafonun nə dərəcədə uğurlu olacağını zaman göstərəcək. Ancaq izlənilən siyasi proseslərə istinadən marafonda rəqabətin əsasən hansı qüvvələr arasında gedəcəyi barədə müəyyən ehtimallar irəli sürmək mümkündür. Həmçinin o da aydındır ki, ölkədə Makronun hakimiyyətdə olduğu dönəmdə pisləşən sosial-iqtisadi durum, maliyyə çətinlikləri, yaşanan hökumət böhranları və.s amillər seçkilərin nəticələrinə təsirsiz ötüşməyəcək.

## Makron üçün yolun sonu

Bəri başdan bir məsələ aydındır ki, 2027-ci il seçkiləri hazırkı prezident E.Makron üçün yolun sonu olacaq. Özünün bildirdiyi kimi, əvvəllər siyasətlə məşğul olmayan E.Makronun Yelisey Sarayına yolu 2017-ci il seçkilərindən başlayıb. O. həmin seçkilərdə "İrəli" partiyasının rəhbəri olaraq qalib gəlib və mayın 8-də ikinci Dünya müharibəsinin başa çatması günü kimi qeyd olunan xatirə mərasimində əvvəlki prezident Fransua Ollandla birlikdə iştirak edib. Bu, onun üçün qatıldığı ilk rəsmi tədbir idi. 2017-ci il mayın 14-də isə Yelisey Sarayını təhvil alma mərasimi baş tutub. Bundan sonra Makron ölkəsində 2022-ci ildə keçirilən prezzident seçkilərinin də qalibi olub.

E.Makron artıq 2027-ci il seçkilərinə qatılmayacağını bəyan edib. O bununla bağlı mövqeyini Yeni il müraciətində rəsmən açıqlayıb. Bildirib ki, vətəndaşların ona verdiyi mandatın tələblərinə uyğun olaraq 2027-ci ilə qədər - səlahiyyət müddətinin sonuna kimi - vəzifəsində qalacaq. "Fransa xalqının mənə etibar etdiyi mandat çərçivəsində hər gün - son saniyəyədək işləməyə davam edəcəyəm" - deyə prezident vurğulayıb. Makronun sözlərinə görə, 2026-cı ilin sonlarında növbəti prezident seçkilərinə hazırlıq prosesi başlayacaq və bu, son on ildə onun iştirak etmədiyi ilk seçki kampaniyası olacaq.

Qeyd edək ki, Makronun Yelisey Sarayını tərk etmək qərarı onun şəxsi iradəsinə bağlı olan bir məsələ deyil. Bu, ilk növbədə qanunvericiliyin tələbidir. Fransa Konstitusiyasına görə, bir şəxs iki müddətdən artıq prezident postunda qala bilməz.

Bəs Makronun 2027-ci il seçkilərindən sonra siyasi taleyi necə olacaq? İndiyədək bununla bağlı müxtəlif mülahizələr irəli sürülüb. Xüsusilə də onun Avropa İttifaqı (Aİ) qurumlarında yüksək posta keçəcəyi dövriyyəyə buraxılan iddialar sırasındadır. Lakin hələlik bununla bağlı konkret bir hərəkətlilik müşahidə olnmur. Makronun özü isə 2027-ci ildə ikinci prezidentlik müddətinin başa çatmasından sonra siyasi fəaliyyətini davam etdirməyəcəyini bəyan edib.

Dövlət başçısı bu açıqlaması ilə gələcək siyasi ambisiyalarına qapını arxadan bağlayıb. Kiprdə tələbələrlə görüş zamanı çıxış edən Makron vurğulayıb: "Mən siyasətlə əvvəllər məşğul olmamışam və bundan sonra da məşğul olmayacağam". Bununla da o, prezidentlikdən sonra ictimai-siyasi səhnədən çəkilmək niyyətini açıq şəkildə ortaya qoyub. 2027-ci il prezident seçkiləri ilə bağlı ilkin müzakirələrin başladığı bir vaxtda Makronun bu mövqeyi Fransa siyasətində gələcək qüvvələr balansı və yeni liderlərin ortaya çıxması baxımından mühüm siqnal kimi qiymətləndirilir.

## Qabriel Attal liberal-mərkəzçi xəttin davamçısı ola biləcəkmi?

Makronun gedişi ilə mərkəzçi-liberalların Fransanın siyasi səhnəsindən tamam çəkiləcəklərini düşünmək sadəlövhlük olardı. Makron və onun komandası heç də bəhs olunan kəsimin siyasi perspektivinə biganə deyil. Sadəcə, elə ssenarilər hazırlanır ki, iqtidar mənsublarının vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə gələcək seçkiləri udmaq üçün zəmin formalaşdırmaları əslə diqqət çəkməsin. Yəni iqtidar bir tərəfdən seçki prosesinin təbii axarı ilə getməsinə qarışmamaq görüntüsü yaradır, digər tərəfdən isə seçki texnologiyasını dəyişməklə siyasi varisliyin təmin edilməsi qayğısına qalır. Keçmiş baş nazir Qabriel Attalın prezidentliyə namizədliyini irəli sürməsi məhz mərkəzçi-liberalların seçki prosesinə qarışıq texnologiyadan iistifdə etməklə hazırlaşdıqlarını ortaya qoyur. Mərkəzçi-liberal qrupun təmsilçisi olan Qabeiel Attalın namizədliyini Parisdə deyil Aveyron bölgəsində elan etməsi diqqət çəkir. Paris Fransanın yalnız inzibati paytaxtı deyil, həm sə siyasi mərkəzidir. Bəs onda ciddi siyasi fiqur olan keçmiş baş nazir niyə siyasi karyerasının dönüşünü paytaxtdan deyil, əyalətdən başlayır? Bunu ənənələri olan Fransa siyasətində nəbz tutmaq anlamında dəyərləndirmək mümkündür. Bütövlükdə Fransa cəmiyyəti ənənələrə bağlı olsa da, yeniliklərə daha çox açıqdır. Fransızlar hər sahədə novatorluğu, başqalarının təkrarlamadığı cəhətləri yüksək dəyərləndirirlər. Bu baxımdan mərkəzçi-liberalların seçki marafonuna əyalətdən start vermələrinin cəlbediciliyi real dəyərləndirilir.

Burada əsas amil isə, heç şübhəsiz ki, son illərdə Fransada siyasi ab-havanın müəyyənləşməsində əyalətlərdə baş verənlərin müstəsna rol oynaması ilə bağlıdır. Bir müddətdir ki, Fransanın zəngin inqilablar tarixinə "Fermerlər üsyanı" və yaxud onun bir qolu kimi bütün Avropada məşhurlaşan və ayrı-ayrı qonşu ölkələrdə də təkrarlanan "Peyin inqilabı" da daxil olub. Zamanında fransızlar dünyaya inqilab yolu ilə rejimi dəyişmək nümunəsi təqdim edib. İndiki mərhələdə tarixin təkrarlandığını iddia etmək mümkün deyil. Ancaq görünür mərkəzçi-liberal blok "yumşaq keçid" inqilabı görüntüsü yaratmaqla cəmiyyəti Qabriel Attalın seçiciləcəyi təqdirdə ölkənin dəyişikliklərə açıq olacağına inandırmaq istəyir.

Yeri gəlmişkən, hazırkı mərhələdə gələcək prezident fəaliyyətində mütləq qaydada cəmiyyətdən gələn siqnalları nəzərə almalıdır. E.Makron bütün fəaliyyəti boyunca Avropada inteqrasiyanın daha da genişlənməsinin prioritetliyi mövqeyindən çıxış edib. Bu, Brüsseldə müsbət qarşılansa da, daxildə problemlərin dərinləşməsi, inflyasiyanın artması, ardıcıl hökumət böhranları, maliyyə sabitliyinin təmin olunması məqsədilə sosial xərclərin ixtisara salınması kimi gedişlər onun nüfuzuna ciddi xələl gətirirb. Gələcək prezident bu kimi xətaları təkrarlamamalıdır. Aİ maraqları ilə milli maraqların balanslaşdırılması ən ideal seçim olardı. Baş nazir olarkən hökumət böhranının həllinə nail olmayan Qabriel Attal prezident seçiləcəyi təqdirdə "qızıl ortanı" tapa biləcəkmi?



## İfrat sağçıların və ifrat solçuların önə çıxmaları üçün münbit zəmin

İstənilən seçkilərin nəticələri böyük dərəcədə ölkədəki sosial-iqtisadi vəziyyətlə şərtlənir. Fransada iqtidar komandası seçki prosesinə hazırlıqlara ciddi sosial-iqtisadi təzyiqlər altında başlamaq məcburiyyətindədir. Ölkədə tənəzzül meylləri davamlı hal alıb. Bu günlərdə Milli Statistika və İqtisadi Araşdırmalar İnstitutu (INSEE) ölkənin 2026-cı ilin birinci rübü üzrə iqtisadi artım göstəricisinin yenidən aşağı olduğunu bildirib. İqtisadiyyat naziri Rolan Lekür bu göstəricinin narahatlıq doğurduğunu etiraf edib. Nazir BFMTV telekanalına verdiyi müsahibədə iqtisadi artımın mənfi zonaya düşməsinin yaxşı xəbər olmadığını vurğulayıb.

Nazirin sözlərinə görə, bu geriləmə qismən bir sıra istisna amillərlə bağlıdır. O qeyd edib ki, qış mövsümünün mülayim keçməsi enerji istehlakının azalmasına səbəb olub. Bundan əlavə, "Airbus" şirkətinin ixrac həcmləri əvvəlki dövrlərlə müqayisədə aşağı olub və xüsusi büdcə qanununun təsirləri də iqtisadi aktivliyə mənfi təsir göstərib. Nazir xatırladıb ki, Fransanın dövlət büdcəsinin qəbul edilmədiyi dövrdə bir sıra ictimai siyasətlər müvəqqəti olaraq dayandırılmışdı. INSEE-nin açıqladığı rəqəmləri şərh edən Rolan Lekür bunu gələcək büdcə siyasəti üçün vacib dərs adlandırıb: "Bu nəticələrdən hamımız üçün çıxarılacaq bir nəticə var, xüsusilə də artıq 2027-ci ilin büdcəsinin hazırlanması barədə düşünməyə başladığımız bir vaxtda".

Onun sözlərinə görə, xüsusi büdcə qanunlarına müraciət uzunmüddətli həll yolu hesab edilə bilməz: "Xüsusi qanun seçim deyil. Çünki bu mexanizm dövlət kreditlərinin və dəstək proqramlarının həyata keçirilməsinə mane olur və gördüyümüz kimi, iqtisadi fəaliyyətə konkret şəkildə mənfi təsir göstərə bilər".

Həmçinin Fransada istehlak qiymətlərinin artımı may ayında da davam edib. INSEE-nin açıqladığı ilkin qiymətləndirməyə əsasən, ölkədə inflyasiya illik müqayisədə 2,4 faizə çatıb. Bu göstərici apreldə qeydə alınmış 2,2 faizdən yüksəkdir.

INSEE-nin məlumatına görə, inflyasiyanın sürətlənməsinin əsas səbəbi enerji qiymətlərindəki artım olub. May ayında enerji məhsullarının qiymətləri ötən ilin eyni dövrü ilə müqayisədə 16,8 faiz yüksəlib. Apreldə bu göstərici 14,3 faiz təşkil edirdi. Artımda xüsusilə təbii qaz qiymətlərinin bahalaşması mühüm rol oynayıb. Hesabata əsasən, xidmət sektorunda qiymət artımı da sürətlənərək illik 2 faizə çatıb.

Sosial-iqtisadi siyasətdəki uğursuz nəticələr hakimiyyətin tənqidçiləri, xüsusilə də hazırda ölkədə yüksək reytingə malik ifrat sağçıların və ifrat solçuların mövqelərini gücləndirir. Fransadan gələn məlumatlarda qeyd olunur ki, Marin Le Penin millətçi, immiqrasiya əleyhinə partiyası olan ifrat sağçı partiyanın namizədi Jordan Bardella uzun müddətdir 2027-ci il seçkilərində qalib gəlmək üçün favorit sayılır, Bununla yanaşı, ifrat solçu partiyanın lideri Jan-Lük Melanşonun kampaniyasına dəstək də artır. Son sorğular göstərir ki, onun artıq ikinci turda mübarizə aparmaq üçün böyük şansı var. Siyasi çevrələrdə Melanşonun ifrat sağçıların əsas rəqibi olacağı barədə ehtimallar böyükdür.

## Seçki saxtakarlıqları təkrarlana bilərmi? Bəs Brüssel niyə narahatdır?

İfrat sağçıların və ifrat solçuların mövqelərinin möhkəmlənməsi Yelisey Sarayında ciddi narahatlıq doğurur. Eyni zamanda proseslər Brüsseldə həssaslıqla izlənilir. İfrat cərəyanların təmsilçilərinin Fransada hakimiyyətə gəlməsi Aİ-nin planlarına daxil deyil. Bu. Brüssel-Paris əməkdaşlığının zəifləyəcəyi anlamında qəbul olunur. Çünki hər iki partiya Aİ və NATO ilə əməkdaşlığa birmənalı münasibət bəsləmir.

Buna görə də hazırda Yelisey Sarayında və Brüsseldə iki partiya arasında hansı yollarlasa nifaq ssenariləri üzərində işlənildiyi bildirilir. Bu gün Fransanın siyasi çevrələrində həmçinin mərkəzçi-liberalların seçki manipulyasiyalarına əl atmaq ehtimalları ətrafında da müzakirələr aparılır. Bununla bağlı narahatçılıqların baş qaldırması əbəs deyil. Ötən il E.Makronun təşəbbüsü ilə Milli Assambleyaya keçirlən seçkilərdə açıq-aşkar maxinasiyalara yol verildi. Belə ki, Avropa Parlamentinə (AP) və Milli Assambleyaya seçkilərin birinci mərhələsində böyük fərqlə uduzan mərkəzçi-liberallar sonradan əllərində olan hakimiyyət rıçaqlarından istifadə etməklə, o cümlədən də digər bloklarla separat sövdələşmələr aparmaqla sonrakı turda qüvvələr balansını nisbətən tarazlaşdırmağa nail oldular. Əgər son parlament seçkilərində bu saxta üsuldan istifadə olunubsa, kim təminat verə bilər ki, oxşar hadisələr gələcək prezident seçkilərində təkrarlanmayacaq?

***Mübariz ABDULLAYEV***

# Nüvə silahlarına çəkilən xərclər rekord həddə çatıb

2025-ci ildə dövlətlər nüvə arsenallarına əlavə 16,8 milyard dollar xərcləyəcək.

AZƏRTAC xəbər verir ki, çərşənbə axşamı dərc edilən Beynəlxalq Nüvə Silahlarının Ləğvi Kampaniyasının (ICAN) son hesabatına görə, qlobal nüvə silahlarına çəkilən xərclər ötən il rekord həddə - 119 milyard dollara çatıb.

Nüvə silahlarına malik doqquz ölkə 2025-ci ildə arsenallarına əvvəlki ilə nisbətən 16,8 milyard dollar daha çox xərcləyəcək.

ICAN-ın hesablamalarına görə, ABŞ 69,2 milyard dollar xərcləyəcək ki, bu da bütün digər nüvə silahlarına malik dövlətlərin ümumi vəsaitindən 12,6 milyard dollar çoxdur.

Çin təxminən 13,5 milyard dollar xərcləyərək ikinci yeri tutub, onun ardınca Böyük Britaniya - 12,6 milyard dollar, Rusiya - 9,5 milyard dollar və Fransa - 7,7 milyard dollar gəlir.



ICAN-ın məlumatına görə, nüvə silahına malik dövlətlər son beş ildə bu məqsədlə ümumilikdə 471 milyard dollar xərcləyib və onların hamısı arsenallarını daha bir neçə onillik ərzində saxlamağı planlaşdırır.

Hesabata əlavə edilən xülasədə deyilir: "Bu miqyasda çəkilən həddindən artıq xərclər ölkələrin qlobal ictimai mallara investisiyalarını əhəmiyyətli dərəcədə azaltdığı bir vaxta təsadüf edir".

ICAN daha sonra əlavə edir: "İqlim dəyişikliyinə uyğunlaşma müqavilələrindən imtina etsələr də, çoxtərəfli diplomatiya yolu ilə müharibənin qarşısını almaq üçün öz paylarını verməsələr də, həmin dövlətlərin nüvə silahlarına çəkdiyi nəhəng xərclər bəşəriyyətin xilası üçün deyil, onu məhv etmək istiqamətində araşdırma aparmaq, bu sahəni inkişaf etdirmək, maliyyələşdirmək və yeni alətlər yaratmaq istəyini nümayiş etdirir".

Hesabat Stokholm Beynəlxalq Sülh Tədqiqatları İnstitutunun nüvə silahına malik dövlətlərin arsenallarını modernləşdirmək və genişləndirmək lehinə nüvə tərk-silahı öhdəliklərindən "geri çəkildikləri" və "imtina etdikləri" barədə xəbərdarlığından cəmi bir gün sonra dərc edilib.

"Əl-Cəzirə" telekanalının məlumatına görə, nüvə silahına malik 9 dövlətin ümumilikdə 12 mindən çox döyüş başlığına sahib olduğu təxmin edilir ki, bunların da böyük əksəriyyəti ABŞ və Rusiyada yerləşir.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Azərbaycançılıq ideyasının yeni mərhələsi...



## Milli dəyərlərimizin təbliğində təhsil sisteminin rolu

Xalqımızın kimliyi, tarixi yaddaşı və mədəni irsini vahid ideoloji düşüncə kimi formalaşdıran azərbaycançılıq ideyası həm keçmişin təcrübəsini, həm də gələcəyin strateji hədəflərini özündə cəmləşdirir. Bu ideya yalnız etnik mənsubiyyətin ifadəsi deyil, eyni zamanda fərqli tarixi mərhələlərdə müxtəlif siyasi sistemlər daxilində yaşamış xalqımızın özünü dərketmə prosesini meydana çıxarıb. Həmin prosesdə isə dil, ədəbiyyat, din, adət-ənənələr və dövlətçilik təcrübəsi bir-birini tamamlayan əsas sütunlar kimi çıxış edib.

Azərbaycançılıq ideyası xüsusilə XIX əsrin sonu XX əsrin əvvəllərində milli oyanış proseslərinin güclənməsi ilə daha sistemli bir məzmun qazanıb. Bu baxımdan Azərbaycançılıq təkcə mədəni identiklik deyil, həm də sosial-siyasi modernləşmə proqramı kimi dəyərləndirilə bilər. Bu ideya həm də dövlətçilik ənənələrinin qorunması və inkişaf etdirilməsi ilə sıx bağlıdır. Belə ki, qədim və orta əsrlərdən başlayaraq mövcud olmuş dövlətçilik təcrübəsi müasir Azərbaycan Respublikasının ideoloji əsaslarının formalaşmasında mühüm rol oynayıb. Xüsusilə, müstəqillik dövründə bu ideya dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib və milli ideologiya səviyyəsinə yüksəlib.

### Təhsildən başlayan milli şüur

Mövzu barədə "Yeni Azərbaycan"a danışan təhsil üzrə ekspert Səbuhi Abdullayev bildirib ki, Azərbaycançılıq ideyasının təbliği, yalnız bir şüarın səsləndirilməsi və ya formal tədbirlərin keçirilməsi ilə məhdudlaşdırıla bilməyəcək qədər dərin, çoxqatlı və davamlı bir prosesdir: "Bu ideya bir xalqın tarixi yaddaşını, mədəni özünüdərkini, dilinə, ədəbiyyatına, musiqisinə və ümumilikdə milli kimliyinə olan bağlılığını formalaşdıran əsas sütunlardan biri kimi çıxış edir. Azərbaycançılığın geniş şəkildə təbliği üçün ilk növbədə təhsil sistemində köklü və məqsədyönlü yanaşma formalaşdırılmalı, məktəblərdə və universitetlərdə Azərbaycan tarixi, ədəbiyyatı və mədəniyyəti yalnız faktların öyrədildiyi bir fənn kimi deyil, şagird və tələbələrin daxili dünyasına təsir edən, onları düşünməyə, müqayisə etməyə və milli dəyərləri müasir kontekstdə dərk etməyə sövq edən bir bilik sahəsi kimi təqdim edilməlidir. Belə ki, dərsliklərin məzmunundan tutmuş müəllimlərin tədris metodlarına qədər hər bir detal azərbaycançılıq ideyasının ruhunu daşımalı və gənclərdə bu ideyaya qarşı təbii maraq oyatmalıdır".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının təbliği" istiqaməti üzrə hazırlanmışdır**

### Azərbaycançılığın dərk olunmasında pedaqoji yanaşmalar

S.Abdullayevin sözlərinə görə, təhsil müəssisələrində azərbaycançılıq ideyasının təbliği sistemli, ardıcıl və elmi əsaslara söykənən pedaqoji yanaşma tələb edən bir proses kimi qiymətləndirilməlidir: "İlk növbədə kurikulumun məzmunu müasir dövrün tələblərinə uyğunlaşdırılaraq Azərbaycan tarixi və Azərbaycan ədəbiyyatı fənlərinin yalnız məlumat ötürən deyil, analitik düşüncə, müqayisə aparmaq bacarığı və milli-mənəvi dəyərlərə reflektiv yanaşma formalaşdıran interaktiv tədris modeli əsasında qurulması zəruridir. Belə ki, şagirdlər yalnız faktları əzbərləmək deyil, həmin faktların arxasındakı ideoloji, tarixi və mədəni konteksti dərk etməyi öyrənməlidirlər".

### Ənənəvi təhsil metodları ilə rəqəmsal imkanların sintezi

S.Abdullayev qeyd edib ki, təhsil müəssisələrində sinifdənkənar fəaliyyətlərin rolu da xüsusi olaraq vurğulanmalıdır: "Çünki ədəbi-bədii gecələr, debat klubları, tarix və mədəniyyətə həsr olunmuş ekskursiyalar, muzey ziyarətləri və milli irs layihələri şagirdlərin Azərbaycançılıq ideyasını yalnız nəzəri bilik kimi deyil, eyni zamanda emosional və praktiki təcrübə kimi mənimsəməsinə şərait yaradır. Bu da onların milli kimlik şüurunu daha dərin və davamlı edir.

Rəqəmsal tədris resurslarının inteqrasiyası da müasir təhsil sistemində vacib element kimi çıxış etməlidir. İnteraktiv platformalar, virtual muzey turları, elektron dərsliklər və multimedia materialları vasitəsilə Azərbaycançılıq ideyasının daha cəlbedici və gənclərin maraq dairəsinə uyğun şəkildə təqdim olunması təmin edilməli. Beləliklə, ənənəvi təhsil metodları ilə rəqəmsal imkanların sintezi nəticəsində daha effektiv öyrənmə mühiti yaradılmalıdır.

Nəticə etibarilə, təhsil müəssisələrində Azərbaycançılıq ideyasının təbliği yalnız bir ideoloji istiqamət kimi deyil, elmi-pedaqoji əsaslara söykənən, planlı şəkildə həyata keçirilən və şagirdin şəxsiyyət kimi formalaşmasına xidmət edən strateji bir vəzifə kimi qəbul olunmalıdır. Bu prosesdə isə kurikulum, müəllim hazırlığı, sinifdənkənar fəaliyyətlər və rəqəmsal resursların harmonik inteqrasiyası təmin edilməklə milli kimlik şüurunun daha güclü və dayanıqlı şəkildə formalaşdırılmasına nail olunmalıdır".

*Yeganə BAYRAMOVA*

# Təbiətin qanunlarını pozmaq olmaz

## Mövsümsüz meyvələr süfrəmizdə...

Qarpız və yemiş yay mövsümünün əsas və sevilən giləmeyvələri hesab olunur. Azərbaycanda qarpızın təbii şəkildə yetişməsi əsasən yay fəslinin sonlarına, xüsusilə avqust ayına təsadüf edir. Lakin iqlim şəraitinin daha isti olduğu bəzi qonşu ölkələrdə bu giləmeyvələr daha erkən yetişdiyi üçün bazarlara da tez çıxarılır.

Ölkəmizdə qarpız satışının canlanması adətən iyun ayında müşahidə olunur. Hətta mütəxəssislər iyunda yeyilən qarpızın belə insan səhhəti üçün zərərli olduğunu bildirirdilər. Bununla belə, vaxtından əvvəl yetişdirilən qarpızların istehlakının sağlamlıq üçün arzuolunmaz nəticələr yarada biləcəyi dəfələrlə vurğulanıb. Maraqlıdır ki, əvvəlki illərlə müqayisədə bu il bazarlarda qarpızlara daha erkən rast gəlinir.

Bundan əlavə, aprel ayından çiyələk, alça, mayda gilas, gilənar kimi giləmeyvələr də satışa çıxarılıb. Baxmayaraq ki, bu meyvələrin hərəsinin öz mövsümü olmalıdır. Mütəxəssislər də hər meyvənin öz mövsümündə yeyilməsini məsləhət görür və vaxtından tez bazara çıxarılan meyvələrin kimyəvi dərmanlardan istifadə edilərək tez yetişdirildiyini bildirirlər. Bunun da insan orqanizminə ziyanlı olduğu danılmazdır.

**Hibrid qarpızlar**

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən qida təhlükəsizliyi üzrə ekspert Məhsəti Hüseynova bildirib ki, xaricdən idxal olunan qarpızlar hibrid qarpızlardır. Çünki, vaxtından tez yetişir: "Azərbaycanda qarpız sezonu avqustun axırı və ya sentyabr ayının əvvəlləridir. Lakin, xaricdə hibrid toxumları çox yayıldığı üçün vaxtından əvvəl satılan qarpızlar yerli deyil. Artıq Azərbaycanda da hibrid toxumlarının satışına başlanılıb. Təəssüflər olsun ki, bunu tərifləyən mütəxəssislər də var. Təbiətin qanunlarını heç vaxt pozmaq olmaz. Əgər təbiət bu qarpızı avqust və ya sentyabrda iqlim şəraitinə görə yetişdirirsə, deməli o vaxtda da yemək lazımdır. Məsələn, İran bizdən isti ölkə olduğu üçün orada iyunda qarpız yetişə bilər. Amma bu o demək deyil ki, biz onu vaxtından əvvəl yeməliyik. Kənardan gələn meyvə-tərəvəzin bizə heç bir faydası yoxdur. Çünki bunlar bizim genetik kodlarımıza daxil deyil. Yəni, genetik kodlara piqmentlər daxildir. Bir sözlə, mövsümündə yeyilməyən meyvənin heç bir faydası yoxdur".

**Hansı təhlükələri var?**

**Zəhərlənmə riski yüksəkdir...**

Ekspertin sözlərinə görə, hazırda satışda olan qarpızlara gübrənin nə qədər vurulduğunu bilmirik: "Əgər hibrid toxumdursa, gübrədən geniş istifadə olunur. Bu da qarpızın nitrat səviyyəsinin yüksək olduğunun göstəricisidir ki, insanlarda zəhərlənmə yaradır. Yəni, immun sistemi zəif olan adam həmin o qarpızdan yesə, zəhərlənmə riski daha yüksəkdir.

Ümumiyyətlə, bu işbazlara da yer verən biz özümüzük. Onlara yol açırıq ki, gəlin bunu satın alacağıq. Parnikdə bitən tərəvəzin insana nə xeyri ola bilər ki? Gübrədən geniş istifadə olunduğuna görə, zəhərlənmə halları çox olur. Riskli qidalar yalnız ət mənşəli olmur. Meyvə-tərəvəz də riskli qida qrupuna daxildir".

M.Hüseynovanın sözlərinə görə, insanlar bilməlidir ki, nitrat və kimyəvi gübrələr insan orqanizmini zəhərləyə bilir. Bu cür vasitələrdən yalnız çox az doza ilə istifadə etmək olar: "Lakin ölkəmizdə həm nitratdan, həm də kimyəvi gübrələrdən normadan artıq istifadə olunur. Ona görə də alıcılara tövsiyə edirəm ki, mümkün qədər bu cür mövsümü olmayan məhsullardan istifadə etməsinlər".



**Satıcılara aldanmayın...**

Mövsümdən öncə yeyilən qarpızın tərkibindəki maddələrin zəhərləməyə səbəb olduğunu söyləyən ekspert bildirdi ki, xüsusilə həssas yaş qrupundan olan insanlar, yəni uşaqlar, yaşlı, xroniki xəstəliyi olan insanlar, hamilə qadınlar üçün daha təhlükəlidir: "Əgər bu məhsul hansısa bir qida növü ilə qəbul edilərsə, immun sistemi aşağı olan şəxslərdə həmin qidaların bir-biri ilə təsiri nəticəsində zəhərlənmə baş verir. Bu baxımdan da qarpızları mövsümdən əvvəl yemək məsləhət görülmür. Hətta bir çox hallarda satıcılar məhsulun isti ölkələrdən gətirildiyi üçün heç bir zəhərlənməyə səbəb olmayacağını deyirlər. Amma onlara aldanmaq olmaz".

**Hansı məqamlara diqqət etməliyik?**

Mütəxəssis bildirib ki, həmçinin mövsümündə bitən qarpızı seçmək üçün bəzi məqamlara diqqət etməliyik: "Olğunlaşmamış, yəni yetişməmiş qarpızı satmaq düzgün deyil. Bəzi işbazlar avqust-sentyabr aylarında da bu əməllərindən əl çəkmirlər. Qarpızın saplağına baxmaq lazımdır. Əgər saplaq quruyubsa, deməli, onun içi də yetişib. Yox, əgər saplaq yaşıl rəngdədirsə, demək ki, içi yaxşı deyil. Digər məqam isə qarpıza yumruq vuranda şüşə səsi kimi bir səs gəlməlidir. Sanki bu dəqiqə əlimizdə çatlayacaq. Bu qarpızları seçmək daha məqsədəuyğundur".

*Yeganə BAYRAMOVA*

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5361**
**Sifariş: 732**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova